# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 42 (3508) Cümə axşamı / 23-29 noyabr 2023-cü il Qiyməti 40 qəpik


MÜSAHİB

## Ağdamda böyük istehsal sahələri yaradılır



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

*Müharibədə əldə edilən zəfərdən sonra Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, bir güllə atılmadan işğalçılardan təmizləndi*

***20 noyabr tarixində Azərbaycan dövləti və xalqı "Agdam Şəhər Günü"nü böyük fəxr hissi ilə qeyd etdi. Erməni separatçı qüvvələri 2020-ci ildə işğal dövründə viran qoyduğu Ağdam şəhərini bir güllə atmadan azad etməyə məcbur edildi. İndi Ağdam bərpa edilir. "Həftə içi"nə müsahibə verən Şuşa-Ağdam-Xocalı seçki dairəsinin deputatı Elman Məmmədovla söhbətimiz maraqlı alındı:***

Səh. 5

MÜSAHİB



**Teymur Qasımlı,**
Beynəlxalq məsələlər üzrə analitik

■ Hər iki ölkə başçısının Rusiyasız, Qərbsiz, Amerikasız, Avropasız birbaşa dialoqu daha tez və effektiv nəticə verə bilər

■ Müqavilə Azərbaycanın maraqlarına elə uyğunlaşdırılmalıdır ki, sonradan Ermənistan tərəfi cığallıq edib razılaşmanı pozmasın

■ İsrail-"HƏMAS" qarşıdurması da Türkiyə-İsrail münasibətlərini son həddə qədər gərginləşdirməyəcək

Səh. 5

# Sərhəddə görüş təklifi

***Azərbaycan növbəti dəfə Ermənistanı ikitərəfli sülh danışıqlarına dəvət edib, bunun üçün hətta konkret məkan da göstərilib. Xarici İşlər Nazirliyinin son bəyanatında bildirilir ki, Ermənistanın Azərbaycanın sülh müqaviləsi layihəsi ilə bağlı təkliflərinə cavab verməsinin, təqribən, 2 ay yarım müddət çəkməsi prosesi ciddi şəkildə yubadıb: "Sülh danışıqlarındakı bu durğunluq regionda sabitliyə və firavanlığa töhfə vermir. Azərbaycan sülh müqaviləsinin mümkün qədər tez tamamlanması üçün Ermənistanla ikitərəfli əsasda birbaşa danışıqlara hazırdır. Biz inanırıq ki, iki ölkə gələcək münasibətləri barədə qərarı birlikdə verməlidir. Qarşılıqlı məqbul məkanın seçilməsi və ya dövlət sərhədində görüş barədə qərar verilməsi də daxil olmaqla, sülh prosesinin davam etdirilməsinə görə iki ölkə məsuliyyət daşıyır. Biz Ermənistan tərəfini yeni lüzumsuz yubatmalara yol verməməyə çağırır və danışıqların tezliklə başlanması üçün onların bu çağırışa müsbət cavab verəcəyinə ümid bəsləyirik".***



Bu, son günlərdə Qərbin - ABŞ və Fransanın sülh danışıqlarına əngəl yaratmaq cəhdləri qarşısında Bakının növbəti uğurlu diplomatik gedişi də sayıla bilər.

■ **Prezident İlham Əliyev də həftənin əvvəlində iraqlı həmkarı ilə birgə mətbuat konfransında bildirib ki, Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır:** "Qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdırlar. Bunların müstəmləkə siyasəti, əsasən, dünyanın müxtəlif yerlərində müsəlman əhalisinə qarşı yönəlmişdir.

Hesab edirəm ki, qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq bir o qədər də yaxşı olar. Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq".

Göründüyü kimi, Azərbaycan heç bir vasitəçiyə ehtiyacının olmadığını açıq şəkildə bəyan edir. Mövqeyi və irəli sürdüyü sülh şərtləri tam ədalətli və beynəlxalq hüququn ən ali prinsiplərinə uyğundur. İkitərəfli danışıqlar formatında Azərbaycanın arqumentləri və haqlı tələbləri qarşısında aciz duruma düşəcək olan isə, Ermənistandır. Daha doğrusu, hakimiyyətini İrəvandakı revanşist qüvvələrin təzyiqi ilə itirmək qorxusunu hər an yaşayan Paşinyan hökuməti.

■ **Rəsmi Bakının mövqeyi bu günlərdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən də açıq şəkildə ortaya qoyulub.** Onun sözlərinə görə, Azərbaycan Ermənistanla sülh sazişinin imzalanması üçün heç bir maneə görmür.

*Azərbaycan Ermənistanla sülh sazişinin imzalanması üçün heç bir maneə görmür*

*Bəzi qərb qüvvələri Qarabağ müharibəsi ilə bölgədə artıq yeni bir dövrün başladığını hələ də dərk edə bilmir*

*Sülh müqaviləsinin tezliklə imzalanması hər zamankından daha realdır*

Azərbaycanın tam suverenliyini və ərazi bütövlüyünü bərpa etdiyini xatırladan Prezidentin köməkçisi bildirib: "Ermənistanın bütün qanunsuz hərbi birləşmələri ölkəmizin ərazisindən çıxarılıb və tərəfimizdən iki ölkə arasında münasibətlərin normallaşması üçün heç bir maneə görmürük. Bunun baş tutması üçün Ermənistan tərəfi anlamalıdır ki, bu sülhün kökləri Vaşinqtonda, Parisdə və Brüsseldə deyil, barış buradadır. Bunun da irəliyə aparılması və bu istiqamətdə ciddi nailiyyətlərin əldə edilməsi üçün Ermənistan bu bölgəyə baxmalı, Azərbaycanla bu istiqamətdə danışıqları davam etdirməlidir. Bizim üçün müharibə başa çatıb, regionda yeni reallıq yaranıb. Bu reallıq ədalətə, beynəlxalq hüquqa əsaslanır".

Göründüyü kimi, Azərbaycan bütün kartlarını açıq oynayır. İrəvanın ehtiyat etdiyi və təhlükəsizlik zəmanətini bəhanə gətirərək qatılmadığı, Moskvanın vasitəçiliyilə reallaşan görüşlərdən imtinanın əvəzndə iki ölkənin sərhəddində bir araya gəlməyi təklif edir. Burada nə ABŞ, Fransa olacaq, nə də Rusiya. Sadəcə ii ölkənin suveren ərazilərinin kəsişdiyi bölgədə elə iki tərəf olacaq müzakirə masasında - Azərbaycan və Ermənistan. Diplomatik təcrübə də göstərir ki, birbaşa danışıqlar və ya regional səviyyədə aparılan müzakirələrdə əldə edilən nəticələrin uzunömürlülüyü və etibarlığı hansısa uzaq siyasi mərkəzlərin vasitəçiliyi və diqtəsi ilə aparılan müzakirələrdən daha effektlidir.

■ **Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Ermənistanın danışıqların aparılmasında Qərbin moderatorluğunda təkid etməsinə öz münasibətini açıqlayıb:**

"Qafqazda yeni oyunların arxasından gedənləri görürük. Bəzi qərb qüvvələri Qarabağ müharibəsi ilə bölgədə artıq yeni bir dövrün başladığını hələ də dərk edə bilmir. İllərlə Ermənistanı təxribata çəkərək bu coğrafiyada yaşayan bütün insanların əziyyətləri, çətinlikləri və qarşıdurmaları üzərindən özlərinə xeyir güdənlər əslində ən böyük zərəri ermənilərə verdilər. Həyata keçirilməsi mümkün olmayan xam xəyalları ortaya ataraq erməniləri istismar və istifadə edərək, etibarsızlığa məhkum etdilər. Bu həqiqətləri artıq Ermənistanın da görməsi və qəbul etməsi zəruridir", - Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin hökumət toplantısından sonra bildirib. Ərdoğan deyib: "Erməni xalqı və rəhbərləri təhlükəsizliyi minlərlə kilometr uzaqda deyil, qonşuları ilə sülhdə və əməkdaşlıqda axtarmaları daha doğru olacaq. Qərb ölkələri tərəfindən göndərilən heç bir silah-sursat qalıcı sülh mühitinin gətirəcəyi dincliyin yerini tuta bilməz.

Səh. 2

GÜNÜN FOTOSU...



**Albaniya parlamentində müxalif deputat tüstü bombası atdı**

GÜNÜN SİTATI



*"Azərbaycanda artıq USAID-in fəaliyyətinə yer yoxdur!"*

**Hikmət Hacıyev,**
Azərbaycan Prezidentinin köməkçisi

KARİKATURA



**Ermənistana inkişaf lazım deyil**

## Dövlət hesabına xaricdə təhsil alanlar geri qayıtmalıdırmı?

**Elşən Qafarov,**
təhsil eksperti

Birinci Dövlət Proqramında da gənclərin məhz qayıdıb Azərbaycanda işləmək bağlı bir öhdəliyi var idi.

Səh. 6

STATİSTİKA



■ **2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycanda sığorta yığımları 27,8% artaraq 1 mlrd. 19,745 milyon manata çatıb.**

Bu dövrdə ümumi sığorta ödənişlərinin həcmi isə 26,7% artaraq 455,012 milyon manata yüksəlib. Belə ki, 2022-ci ilin yanvar-oktyabr aylarında sığortaçılar topladıqları hər 100 manatın 45 manatını ödənişə yönləndirmişdirlərsə, bu ilin eyni dövründə bu rəqəm 44,6 manata kimi azalıb.




Səh. 7

## Azərbaycan üçün mühüm layihə

PREZİDENTİN İŞ GÜNÜ

## Qəbul



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul edib.**

Dövlət başçısı Leo Dokertinin Azərbaycana səfərinin ikitərəfli, eləcə də regional gündəliyin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirib. Azərbaycanın gözəl bir ölkə olduğunu qeyd edən Leo Dokerti səfərindən məmnunluğunu ifadə edib, ölkələrimiz arasında əlaqələrin zəngin tarixə malik olmasından qürur hissi duyduğunu vurğulayıb.

Qonaq Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının regional sülh və sabitliyin təmin olunmasına hər hansı bir töhfə vermək işinə müsbət yanaşdığını deyib, uzun illərdir Azərbaycan ilə çox mühüm siyasi, iqtisadi, ticarət və enerji əlaqələrinin mövcudluğu ilə fəxr etdiklərini bildirib.

Leo Dokerti vurğulayıb ki, Azərbaycan yalnız Avropanın mühüm enerji təchizatçısı deyil, həm də Cənubi Qafqazın vacib, məsuliyyətli ölkəsidir və Azərbaycansız Avropada sülh və təhlükəsizlik olmazdı.

Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin enerji sahəsində əməkdaşlıqdan başladığını, BP şirkəti ilə uzun illər səmərəli və qarşılıqlı etimada əsaslanan işbirliyinin həyata keçirildiyini qeyd edib. Dövlət başçısı ölkəmizə qoyulan investisiyaların bizə göstərilən inamı nümayiş etdirdiyini məmnunluqla vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, BP şirkətinin uzun illər bundan əvvəl Azərbaycanda fəaliyyətə başlaması ölkəmizin iqtisadi inkişafında və respublikamızda investisiya layihələrinin həyata keçirilməsində mühüm rol oynayıb. Dövlət başçısı hazırda Azərbaycan-BP əməkdaşlığının bərpaolunan enerji sahəsi ilə bağlı yeni mərhələyə qədəm qoyduğunu deyib və bunun region üçün çox gözəl nümunə olduğunu bildirib.

Ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edən Azərbaycan Prezidenti bir daha Leo Dokertinin səfərinin əlaqələrimizin inkişafı ilə bağlı məsələlər barədə fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətinə toxunub. Dövlət başçısı vurğulayıb ki, antiterror tədbirləri nəticəsində Azərbaycan suverenliyini tam şəkildə bərpa edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün artıq hər hansı əngəlin olmadığını deyərək ölkəmizin regional sülh gündəliyini dəstəklədiyini, sülh müqaviləsi və iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün Azərbaycanın Ermənistan ilə dialoqa hazır olduğunu vurğulayıb. Qonaq da öz növbəsində ölkəsinin bu prosesə dəstək verməyə hazır olduğunu ifadə edib.

# "Maskaları çıxarın!"



**"Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 il davam edən işğalı zamanı bir milyondan çox azərbaycanlının bədnam və qanlı etnik təmizləməyə məruz qaldığı bir vaxtda ABŞ işğalçı Ermənistan dövlətinin yanında dayanıb. İndi də həmin siyasət eyni formada davam edir".**

Bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında Samanta Pauerə cavabında bildirib. "Birləşmiş Ştatların BMT Təhlükəsizlik Şurasında daimi nümayəndəsi kimi o, heç vaxt azərbaycanlı qaçqın və məcburi köçkünlərin acınacaqlı vəziyyəti məsələsini qaldırmağa və BMT TŞ-nin qətnamələrinin icrasını tələb etməyə cürət etməyib. "Aurora" mükafatının himayəsi altında Samanta bu fondun qurucusu, Ukraynadakı separatizmi maliyyələşdirən bədnam oliqarx və pul yuyan Ruben Vardanyan ilə birləşdi. Maraqlıdır ki, 2019-cu ildə Avropa Parlamentinin deputatları Ruben Vardanyana qarşı çirkli pulların yuyulması sxemlərinə görə sanksiya tətbiq edilməsini tələb etdilər. Ruben Vardanyan, həmçinin 2022-ci ilin oktyabrından Qarabağda peyda olduqdan sonra ABŞ-nin dəstəklədiyi Ermənistanın siyasi rəhbərliyinə qarşı dövlət çevrilişi planlaşdırırdı.

Azərbaycanafobiya, türkafobiya, siyasi korrupsiya, "puldan söhbət" və "Aurora" mükafatı çərçivəsində siyasi spekulyativlər, ehtimal ki, Ruben Vardanyan və Samantha Pauerin ortaq dəyərləri və maraqları idi. Maskaları çıxarın! Azərbaycanda artıq USAID-in fəaliyyətinə yer yoxdur!" - Hikmət Hacıyev qeyd edib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Prezident SPECA ölkələrinin sərgisinin açılışında iştirak edib

***Prezident İlham Əliyev noyabrın 22-də Bakı Ekspo Mərkəzində Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsi çərçivəsində Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilən "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" adlı sərginin açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına sərgi ilə bağlı məlumat verdi.***




## Gündəm

Paytaxt Bakı Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsinə ev sahibliyi edir. Proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. 1998-ci ildə yaradılan proqrama Azərbaycan 2002-ci ildə qoşulub və birliyin fəal üzvlərindəndir. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

SPECA-nın yaradılmasının 25 illiyi münasibətilə təşkil olunan sərgi Azərbaycanın xüsusi təşəbbüsü ilə keçirilir. Bakı Ekspo Mərkəzinin 4 min kvadratmetrlik sahəsini əhatə edən sərgidə ancaq SPECA ölkələrinin stendləri yer alır. Həmin stendlərdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan dövlət müəssisələrinin və özəl şirkətlərin məhsullarının nümunələri nümayiş olunur. Bütün stendlər Azərbaycan tərəfindən vahid dizayn formatında quraşdırılıb. Prezident İlham Əliyev "Azərxalça" ASC tərəfindən hazırlanan "Bizi birləşdirən dəyər" instalyasiyasının üzərindəki ağ örtüyü götürməklə sərginin rəsmi açılışını etdi. Bu instalyasiya SPECA ölkələrinin əməkdaşlıq əlaqələrini əks etdirir.

Sərginin Azərbaycan Milli Stendinin mərkəzində "Made in Azerbaijan" markası ilə istehsal olunan məhsullar nümayiş etdirilir. Burada Azərbaycanın 33 şirkətinin istehsal etdiyi spirtli içkilər, meyvə şirələri, konservləşdirilmiş məhsullar, qənnadı məmulatları, qurudulmuş meyvələr, süd məhsulları, kosmetik vasitə çeşidləri və "ABAD"çı sənətkarların hazırladıqları əl işləri təqdim olunur.

Dövlətimizin başçısı Azərbaycan Milli Stendi ilə tanış oldu.

Milli Stend iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf və innovasiyalar, nəqliyyat infrastrukturu və tranzit, energetika, müdafiə sənayesi, turizm, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı kimi istiqamətləri əhatə edir.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, sərgidə nazirliyin müəssisələrində istehsal olunan müxtəlif növ atıcı silahlar, yaxınməsafəli döyüş vasitələri, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, pilotsuz uçuş aparatları və s. olmaqla 88 adda müdafiə təyinatlı məmulat nümayiş etdirilir. Əvvəlki sərgilərdən fərqli olaraq bu sərgidə ilk dəfə yeni yaradılan "AH-12,7" iriçaplı pulemyot da təqdim olunur.

Sərginin İqtisadi inkişaf blokunda ölkəmizin zəngin iqtisadi resursları, dayanıqlı və inklüziv inkişaf modeli, rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində görülən işlər, iqtisadi-ticari əlaqələrə dair məlumatlar əksini tapıb. Blokda, həmçinin davamlı makroiqtisadi sabitliyi şərtləndirən amillərlə yanaşı, ölkə iqtisadiyyatına cəlb edilən investisiyalar, dövlətin dəstək mexanizmləri və reallaşdırılan dövlət proqramları barədə məlumat verilir.

Qeyd olunur ki, son 20 il ərzində ölkəmizdə ümumi daxili məhsul istehsalı (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, yəni ÜDM-in real həcmi 4 dəfə artıb. Dövlət büdcəsinin gəlirləri isə 2002-ci ildə olduğu 0,9 milyard dollardan 20 dəfədən çox artaraq 18,01 milyard dollara yüksəlib. Stenddə ölkəmizin iqtisadi inkişaf göstəricilərindən bəhs edən videoçarx da nümayiş olunur.

Sənaye blokunda isə ölkədə aparılan uğurlu sənayeləşmə siyasəti nəticəsində əldə olunan nailiyyətlər, zəngin xammal resursları, sənaye istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi, sənayenin inkişaf istiqamətləri, eləcə də sənaye parkları və məhəllələri, qeyri-neft sənayesinin dinamik inkişafı barədə məlumatlar əks olunub. Diqqətə çatdırılır ki, 2002-2023-cü illərdə ölkədə 4 min 95 sənaye müəssisəsi yaradılıb. 2002-ci ildə sənayedə istehsal həcmi 1,6 milyard dollar olduğu halda, 2022-ci ildə bu rəqəm 10,4 milyard dollara çatıb.

Sərgidə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində görülən işlər, ərazilərin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyanın, dayanıqlı inkişafının təmin olunması, ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış



şəraitinin yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdən bəhs edilir. 2021-2023-cü illər ərzində 10 min kvadratkilometrdən çox ərazidə bərpa-quruculuq işlərinin həyata keçirilməsinə dövlət büdcəsindən 7 milyard dollar vəsait ayrılıb.

Bu sərgidə Ümummilli Lider Heydər Əliyevə həsr edilən xüsusi stend də nümayiş olunur. Burada Ulu Öndərin 100 illiyinə həsr olunmuş videoçarx, Ulu Öndərin həyat və yaradıcılığından bəhs edən 11 kitabın nüsxəsi və markalar təqdim edilir. Bundan başqa, stenddə "AzerGold" QSC tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə istehsal edilən "100 il və onun fövqündə bir irs" adlı qızıl sikkə də nümayiş olunur. Dövlət başçısı SPECA-nın digər üzv dövlətlərinin -Qazaxıstanın, Qırğızıstanın, Tacikistanın, Türkmənistanın və Özbəkistanın stendləri ilə tanış oldu. Stendlərdə üzv ölkələrdə istehsal olunan məhsullar nümayiş etdirilir. Qeyd edək ki, sərginin məqsədi iştirakçı ölkələrin iqtisadi potensialını nümayiş etdirmək, birlikdə qarşılıqlı faydalı tərəfdaşlıq imkanlarını müzakirə etmək və üzv dövlətlər arasında regional iqtisadi əməkdaşlığı gücləndirməkdir.

Mərkəzi Asiya ölkələri və Azərbaycan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik vahid tarixi-mədəni və coğrafi regiondur. Son dövrlər dövlət başçılarının qarşılıqlı səfərləri ölkələr arasında iqtisadi əməkdaşlığın ikitərəfli formatda inkişafını təşviq edir. Eyni zamanda, bu regionun beynəlxalq arenada artmaqda olan nüfuzu ölkələrimizin sıx əməkdaşlığını labüd edir. Bu baxımdan SPECA çərçivəsində fəaliyyət çoxtərəfli əməkdaşlığın inkişafı üçün münbit zəmin yaradır.

Sərgidə İqtisadiyyat Nazirliyi və "Azərxalça" ASC-nin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Triptix" üçlü xalça kompozisiyası təqdim olunur. Burada, həmçinin "44" kolleksiyası da nümayiş olunur. Bu xovlu xalça kolleksiyası "Qasımuşağı" adlı Qarabağ xalçasının nadir kompozisiyasından ilhamlanaraq məhdud sayda - 44 ədəd toxunub.

Sərginin açıq sahəsində iştirakçı ölkələr tərəfindən nəqliyyat vasitələri, həmçinin sənaye, kənd təsərrüfatı, müdafiə sənayesi, energetika və digər sahələrə aid avadanlıqlar və ağır texnikalar nümayiş olunur.

Sərginin sonunda sahibkarlar üçün biznes-forumun keçirilməsi nəzərdə tutulur.

# Sərhəddə görüş təklifi

◂ əvvəli 1-ci səhifədə

Ermənilərin 30 il sonra ortaya çıxan sülh fürsətini yenə fərqli xəyallar quraraq boş yerə istifadə etməmələri ən böyük arzumuzdur. Buradan bir daha Ermənistana Azərbaycanlı qardaşlarımızın uzatdığı sülh əlini tutmağa çağırırıq. Türkiyə olaraq bizim də Azərbaycanla əməkdaşlıq içində prosesin uğuru üçün lazımi addımları atmağa hazır olduğumuzu bir daha ifadə edirəm". Maraqlı məqam budur ki, bölgədə Ermənistanın inkişafının Azərbaycan və Türkiyə ilə qarşılıqlı münasibətlərin normallaşdırılmasından keçdiyini elə geosiyasi maraqları üstün tutaraq hələlik sülhə əngəl yaratmaq istəyən mərkəzlərin özləri də etiraf edir. Hətta İrəvanı ikitərəfli danışıqlara qatılmaq üçün çağırışlar da edilir. «ABŞ Azərbaycan ilə Ermənistan arasında danışıqlara köməklik göstərməyə hazırdır», - bunu ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller brifinqdə deyib.

"Biz hər iki ölkənin rəhbərliyi ilə əlaqələri davam etdiririk və layiqli və davamlı sülhün bərqərar olmasına töhfə verməyə hazır olduğumuzu bildiririk. Ermənistan və Azərbaycanın birbaşa olaraq regionun xeyrinə problemləri müzakirə etməsi və həll etməsi vacibdir. Biz bu danışıqlara



köməklik göstərməyə hazırıq. Biz digər ölkələrin bu danışıqların aparılmasında öz rolunu təklif etdiyini görmüşük. Biz hər iki ölkənin davamlı razılaşma əldə etmək üçün birbaşa danışıqlar aparmasını vacib hesab edirik. Biz əvvəlki kimi bu danışıqlara köməklik göstərməyə hazırıq və digər ölkələrin belə səylərini alqışlayırıq", - deyə o bildirib.

Avropa İttifaqı (Aİ) üçün Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması əsas maraq kəsb edir. Bu barədə isə, erməni KİV-ə Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar deyib. "Bizim üçün əsas prioritet Ermənistanla Azərbaycan arasında razılaşmanın əldə olunmasıdır. Hər şeydən önəmlisi, bu ölkələr arasında münasibətlərin həqiqətən nizamlanmasıdır. Nəticədə, sazişin harada imzalanması ikinci dərəcəli əhəmiyyət daşıyır", - deyə o qeyd edib. Klaar Aİ-nin hazırda tənzimlənmə prosesində irəliləyişə mane olan real səbəblər görmədiyini vurğulayıb. Bu bəyanatlardan da göründüyü kimi, İrəvanın Bakının sülh dəvətinə boyun əyməkdən başqa çıxış yolu yoxdur. Son məlumatlara görə, Ermənistan Azərbaycan XİN-in sərhəddə görüş çağırışa reaksiya verib.

**■ Azərbaycan və Ermənistanın artıq vasitəçilərə ehtiyacı yoxdur. Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza deyib.**

Hər iki ölkənin 30 ilə yaxın müddətdə vasitəçilik prosesində iştirak etdiklərini bildirən ekspert vurğulayıb: "İki ölkə elə bir səviyyəyə gəlib çatıb ki, liderlər artıq sülh istədiklərini və 5 baza prinsipində, o cümlədən ərazi bütövlüyünün qarşılıqlı olaraq tanınması barədə razılığa gəldiklərini bəyan ediblər. Bu prosesə yeganə maneə separatçı rejim və Ermənistanın qanunsuz silahlı birləşmələrinin Qarabağda mövcudluğu idi. Bu problem də artıq aradan qaldırılıb və iki ölkə liderinin sülh müqaviləsi barədə razılığa gəlməsinə heç bir maneə yoxdur".

M.Brayza hesab edir ki, sülh müqaviləsinin tezliklə imzalanması hər zamankından daha realdır. "Mən son bir neçə aya qədər heç zaman sülh müqaviləsi barədə razılığın əldə edilməsinin bu qədər real olmasına dair açıqlama verməmişəm. Bu, indi daha çox mümkün görünür. Bu prosesi dayandıra biləcək yeganə hal Nikol Paşinyanın əleyhdarları olan radikal millətçilər, həmçinin ABŞ-da prosesin əleyhinə olan diaspor nümayəndələrinin siyasi sabotaja əl atması ola bilər", - deyən sabiq səfirin sözlərinə görə, regional inkişaf baxımından sülh müqaviləsi çox böyük əhəmiyyətə malikdir. Metyu Brayza vurğulayıb ki, müqavilənin əleyhdarları Zəngəzur dəhlizinin açılmasının Azərbaycanın Ermənistan ərazisinə daxil olmaq cəhdləri kimi iddialar irəli sürsələr də, reallıqda bu barədə məhz Ermənistan özü 2020-ci ilin 10 noyabr tarixində razılığa gəlib. "Mən əminəm, Nikol Paşinyan anlayır ki, əgər nəqliyyat əlaqələri bərpa olunarsa və bu xətt Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirərsə, bu, nəinki Ermənistana investisiya cəlbini artıracaq, iş yerlərinin açılmasına, həmçinin iqtisadiyyatın inkişafına gətirib çıxaracaq, Ermənistan iqtisadiyyatının regional iqtisadiyyata reinteqrasiyasına şərait yaradacaq. Bu isə regionda tamamilə yeni iqtisadi dinamika formalaşdıracaq və davamlı sülhün bərqərar olmasına yol açacaq. Sülh müqaviləsi regionda bütün investisiyaları real edəcək", - deyə o vurğulayıb. İrəvan Bakı ilə danışıqlarda iştirak etməyə hazırdır. Bu barədə Ermənistanın Xarici İşlər Nazirliyindən Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatına cavab olaraq bildirilib. Bəyanatda qeyd olunub ki, Ermənistan tərəfi Azərbaycanla münasibətlərin normallaşması, həmçinin, Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olması üçün səylər göstərməkdə siyasi iradəsini təsdiqləyir. Bu razılığın sözdə, yoxsa əməldə olduğunu isə yaxın vaxtlarda müşahidə edəcəyik.

✍ *Ləman Əliyeva*

# ABŞ-ın məsuliyyətsizliyi, Bakının demarşı

***ABŞ-nin Azərbaycana qarşı heç bir ədalət prinsipinə sığmayan, müttəfiqlik ruhuna zidd davranışları Bakı tərəfindən ciddi etirazlarla qarşılanır. Konqresdəki məlum dinləmələr və Senatdakı növbəti bədnam layihənin qəbulunun doğurduğu reaksiyanı Vaşinqtonda da görürlər. Sonrakı proseslərdə ABŞ-nin Azərbaycanın haqlı narazılıqlarının nə dərəcədə diqqətə alınacağı, yanlışdan dönüləcəyini isə zaman göstərəcək. Hələlik, Azərbaycanın ictimai-siyasi kəsiminin Vaşinqtonun məsuliyyətsiz davranışları ilə bağlı iradları və etirazları davam etməkdədir.***

## Müzakirə



**■ Milli Məclisin deputatı Elşad Mirbəşirin sözlərinə görə, Azərbayacana qarşı «907-ci düzəliş» ironik hisslər doğurur. Azərbaycanın ABŞ-nin hərbi dəstəyinə ehtiyacı yoxdur.**

Azərbaycan güclü dövlətdir, ordusu güclüdür. Regionda əsas sözü olan subyektdir. ABŞ bunu bilir və mövcud reallığı anlamalıdır. E.Mirbəşir ABŞ-nin Azərbaycana qarşı açıqqərəzli mövqe sərgiləməsinin bir sıra səbəblərinə toxunub. "ABŞ ötən əsrin 90-cı illərində mövcud erməni lobbisinin təsiri altında ermənipərəst mövqe sərgiləməyə başlayıb. Ermənistan 1992-ci ildə sistemli şəkildə Azərbaycan torpaqlarını işğal edərkən ABŞ Konqresində "Azadlığa dəstək" aktına 907-ci əlavə qəbul edilmişdi. Halbuki, bu əlavə Ermənistana qarşı qəbul edilməli idi. Məhz Ermənistan Azərbaycan torpaqlarını işğal edirdi. Bununla ABŞ olduqca ədalətsiz mövqe sərgiləmiş oldu və ümumiyyətlə, dünyaya təbliğ etdiyi dəyərlərlə bağlı qeyri-səmimi olduğunu nümayiş etdirdi. Təcavüzkar, işğalçı Ermənistana bu dərəcədə açıq dəstək nümayiş etdirmək, təbii ki, onu yeni işğallara həvəsləndirmək anlamına gəlirdi. Bundan sonra Ermənistan özünü daha da cəzasızlıq şəraitində hiss etdi və məhz həmin tarixdən sonra nüxtəlif yaşayış məntəqələrimizdə azərbaycanlılara qarşı soyqırımlar törədildi. Ona görə də 90-cı ilin əvvəllərində Ermənistanın ölkəmizə qarşı törətdiyi qanlı terror aktlarında, ümumən qanlı cinayətlərdə ABŞ-nin əlinin olduğunu qeyd edə bilərik".

> *ABŞ yalnız özünün məkrli maraqlarına uyğun davranan bir ölkədir*

> *Azərbaycanın geosiyasi arenada nüfuzu yüksəkdir, separatizmə qarşı mübarizədə öndə gedir*

E.Mirbəşir eyni zamanda qeyd edib ki, ABŞ hər zaman təkcə Cənubi Qafqazda deyil, dünyanın müxtəlif regionlarında münaqişə vəziyyətləri ilə bağlı öz maraqlarına uyğun mövqe sərgiləyib. Beynəlxalq terrorizmə qarşı mübarizə məsələsində ABŞ səmimiyyətdən tam uzaq olub. Onun sözlərinə görə, məqsədli olaraq ABŞ-də terrorun mahiyyəti bir neçə formada izah edilir. ABŞ-yə hansı forma sərf edirsə, ona istinad edərək addımlar atır. Təbbi ki, bu, dünya təhlükəsizliyi üçün olduqca ciddi təhdid yaradan bir haldır.

"Keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qərəzli mövqe nümayiş etdirməklə ABŞ hər zaman erməni lobbisinin təsiri altında olub. Məsələnin digər tərəfi ondan ibarətdir ki, ABŞ həm də erməniləri özünün məkrli maraqlarını, ambisiyalarını həyata keçirmək üçün rahat istifadə edilə biləcək alət kimi görüb. Bu, təkcə ABŞ-yə deyil, Avropa ölkələrinə, xüsusən Fransaya da aiddir". Deputat hesab edir ki, hazırkı dövrdə cərəyan edən proseslər daha çox ikinci səbəbin üzərində dayanmağa imkan yaradır. Onun sözlərinə görə, indiki mərhələdə ABŞ Cənubi Qafqazda da Rusiyaya qarşı növbəti cəbhəni açır. "2018-ci ildə Paşinyan Qərbin dəstəyi ilə hakimiyyətə gətirildi. ABŞ belə təsadüfi adamları ona görə siyasətə gətirir ki, onlardan rahat istifadə etsinlər. Onların siyasi təfəkkürü, məsuliyyətləri olmur. Paşinyan özünün siyasətində sərt transformasiyalara yol verən rəhbərdir. Bunun özü də onun nə qədər qeyri-ciddi olduğunu, siyasi təfəkkür çevrəsinin göstəricisidir. Ayrıca bu, onun aşkar idarə edildiyinə dəlalət etməkdədir. Ona görə də ABŞ Paşinyan vasitəsilə Ermənistanı özünün tam idarəçiliyinə götürüb. Bu, region üçün olduqca təhlükəlidir. ABŞ Ermənistandan Rusiyaya qarşı geosiyasi mübarizədə istifadə etməkdədir".

E.Mirbəşir bu təhlükənin Azərbaycan üçün də proqnozlaşdırıla biləcəyini düşünür. Onun sözlərinə gözrə, ABŞ yalnız özünün məkrli maraqlarına uyğun davranan bir ölkədir və bu maraqların təmin olunması istiqamətində reallıqları rahatlıqla təhrif edir, qeyri-obyektiv mövqe sərgiləyir. "Məsələn, bu gün ABŞ Ermənistanı bir alət kimi görürsə, ona dəstək verməkdən çəkinməyəcək. ABŞ üçün heç bir bəşəri, insani dəyər mövcud deyil. İkinci tərəfdən, ABŞ marginal maraqlarını həyata keçirərkən öz davranışlarında mənəvi etik çərçivəni gözləmir. Bu da olduqca təhlükəlidir. Ermənistan 30 il Azərbaycan torpaqlarını işğala məruz qoyub, terror, soyqırımlar törətsə də, ABŞ bunları nəzərə almadı. ABŞ öz davranışlarında özünün bu mahiyyətini aşkar nümayiş etdirib. Bu gün dünyanın müxtəlif coğrafiyalarında ABŞ-nin kütləvi insan qırğınlarında, ayrı-ayrı xalqlara qarşı həyata keçirilən terrorlarda birbaşa dirijorluğunu görmək mümkündür. Bu baxımdan qlobal təhlükəsizliyin təmin olunması ilə bağlı ABŞ-nin çağırışlarını və yaxud hansısa səyləri sırf dekorativ xarakterlidir. Biz bunu ABŞ-nin Azərbaycana qarşı sərgilədiyi mövqeyində də müşahidə etməkdəyik. ABŞ nəzarətində olan subyektlərinin haqsız davranışlarına don geyindirməyə hazır olduğunu nümayiş etdirməkdədir. Eləcə də təcavüzkar, işğalçı Cənubi Qafqaz regionuna hər zaman təhdud yaradan, terroru dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistana dəstək nümayiş etdirməsi bir daha göstərir ki, ABŞ öz maraqları naminə cinayətkarı dəstəkləyir".

E.Mirbəşir qeyd edib ki, 907-ci düzəlişə əlavə 1992-ci ildə qəbul edilib. 2001-ci ildə ABŞ-nin maraqlarına cavab verdiyi üçün Konqres ona hüquqi səlahiyyətlərini dayandırmaq imkanı vermişdi. "2001-ci ildə Azərbaycan beynəlxalq terrorizmə qarşı koalisiyaya dəstək nümayiş etdirdi. Bu gün isə ABŞ fərqli davrana bilmək imkanlarını görür. İraqa, Əfqanıstana bu istiqamətdə dəstək lazım deyil. Belə olan halda, Azərbaycanın haqlı maraqlarını görməzdən gələ bilər. Bu baxımdan 907 maddənin yenidən hüquqi qüvvəsi təmin olundu və ədalətsiz mövqeyini təsdiqləmiş oldu".

E.Mirbəşir hesab edir ki, ABŞ kimi dövlətlər belə qərəzli addımlar atarkən reallıqları unudur. Onun sözlərinə görə, bugünkü Azərbaycan 1992-ci ilin Azərbaycanı ilə müqayisə edilə bilməz.

**■ Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanovun qənaətincə, hansı ölkənin nə deməsindən asılı olmayaraq, Azərbaycan bölgədə öz sözünü söyləyəcək. Ermənistanla sülh müqaviləsi də bağlanacaq. Cənab Prezidentin dediyi kimi, biz qarşıya qoyduğumuz hədəflərə çatacağıq.**

Ekspert bildirir ki, ABŞ Minsk qrupunun üzvü olsa da, son 30 il ərzində mütəmadi olaraq Azərbaycana qarşı qərəzli, əsassız fikirlər səsləndirib. Onun fikrincə, bu, daha çox seçkilər ərəfəsində ermənipərəst senatorların səs qazanmaq üçün çıxardığı oyunlardır. Ş.Ramaldanov hesab edir ki, ABŞ-dən gələn bu cür ikilistandartlı çıxışların Azərbaycana heç bir təsiri olmayacaq: "Azərbaycan güclü dövlətdir, translogistik yolların mərkəzində yerləşir. Azərbaycanın geosiyasi arenada nüfuzu yüksəkdir, separatizmə qarşı mübarizədə öndə gedir".

O ki qaldı ABŞ və digər böyük dövlətlərin ermənipərəst mövqedən çıxışına, ekspert hesab edir ki, bu, Ermənistandan İrana, Rusiyaya təzyiq etmək üçün əlverişli ərazi kimi istifadə etmək cəhdidir. "ABŞ-nin ermənipərəst mövqeyi ermənilərə məhəbbətdən irəli gəlmir. ABŞ-nin regionda maraqları var və ona çatmaq üçün Ermənistan faktorundan istifadə etmək istəyir. Bunlar Ermənistana,

> *Azərbaycan düz, 30 il Qərbə bu şansı verdi*
> *Aydın Quliyev*

> *ABŞ-nin Azərbaycanı hədələməsi heç bir çərçivəyə sığmır*

ABŞ-yə müsbət heç nə vəd etmir.

Fransanın, ABŞ-nin mövqeyi onu göstərir ki, regionda sülhdə maraqlı deyillər. Azərbaycanın əks-hücum əməliyyatı tarixi göstərir ki, biz bu addımı atmaqda haqlıydıq. Minsk qrupu dövlətləri bizə heç nə vəd etmirdi, indi də heç nə verən deyil. Bununla yanaşı, regionda Türkiyə ilə Azərbaycanın birgə fəaliyyəti sayəsində regionda sülh, əmin-amanlıq istiqamətində işlər aparılır. Azərbaycanın gün-gündən artan nüfuzu, öz sözünü açıq deməsi müstəqil dövlət olaraq gücünün nümayişidir və onunla hesablaşacaqlar".

**■ Siyasi şərhçi Aydın Quliyevin qənaətincə, ABŞ rəsmiləri Azərbaycanın 19 sentyabr antiterror tədbirləri nəticəsində öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməsindən qətiyyən məmnun qalmadığı üçün təzyiq kursunu götürüb.**

ABŞ bir ovuc ermənının mənafeyini Azərbaycanın mənafeyindən üstün tutur. Ermənistanı məğlub durumdan çıxarmaq üçün revanşist qüvvələrə dəstək verməklə məşğuldur. Bu, olduqca təhlükəli yoldur. A.Quliyev qeyd edir ki, Qərb, Avropa, xüsusilə də Fransa və ABŞ Ermənistan təəssübkeşliyini əsas götürərək, Azərbaycana qarşı siyasəti kəskinləşdirirlər. Ekspert ABŞ rəsmilərinin bugünkü açıqlamalarına diqqət çəkərək, bir neçə amilə toxunub. Onun fikrincə, həmin çıxışlardan görünür ki, ABŞ 907-ci düzəlişin icrasını döndürmaq fikrində deyil. Dövlət Departamenti sədrinin köməkçisi Braynın açıqlamaları da göstərir ki, ABŞ Azərbaycana qarşı məhz Ermənistanın mənafeləri baxımından təzyiq dili ilə danışmağa başlayır.

Ekspert ABŞ-nin təzyiq siyasətində iki əsas istiqamətə diqqət çəkib: "Birinci, elə görüntü yaradılır ki, sanki Ermənistan-Azərbaycan arasındakı sülh prosesinin hazırkı durğunluğunun səbəbkarı Azərbaycandır. ABŞ bu prosesi ölü nöqtədən qaldırmaq üçün Ermənistana təzyiq göstərməkdənsə, Azərbaycana təzyiq edir. Bu, sülh prosesinin normallaşmasının məsuliyyətini Ermənistanın üzərindən çıxarıb, Azərbaycana yönəltmək cəhdidir.

İkincisi, ABŞ Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya gedən iqtisadi marşrutlarda Azərbaycanın səyləri ilə yaradılmış üstünlükləri görmür. Əksinə, məhz Ermənistanın da üzərindən keçməklə Avropaya bir dəhliz açılmasını labüd hesab edir. Açıq-aşkar görünür ki, Azərbaycanın Zəngəzur dəhlizinin açılması ilə bağlı səylərinə dəstək yoxdur. Üstəlik, İran üzərindən keçməklə Azərbaycanın qərbi ilə Naxçıvanı birləşdirən bu dəhlizə qarşı aqressivlik nümayiş etdirilir. Halbuki bu dəhliz sırf Azərbaycanla Naxçıvanın ehtiyacları üçündür. Ermənistana təzyiq edib, onu Zəngəzur dəhlizini açmağa məcbur etmək əvəzinə, Azərbaycana qarşı təzyiq göstərilir".

A.Quliyev hesab edir ki, bütün bunlar təsadüfi deyil. Qərbdən gələn bu təzyiqlər Azərbaycanın bölgədə başladığı sülh prosesini gecikdirmək, Ermənistanın sülh sazişini imzalamasının qarşısını almaq, bölgədə münaqişə ocağını saxlayıb, bu bəhanə ilə regiona daxil olmaq məqsədləri güdür. "Azərbaycan düz, 30 il Qərbə bu şansı verdi. Onlar bu şansı münaqişənin həll olunmamasına yönəltdiklərinə görə prosesdən kənarda qaldılar. İndi də sülh, təhlükəsizlik layihələrinə üstünlük vermək əvəzinə, dağıdıcı və aqressiv layihələrə dəstək verməyə başlayıblar. Elə Rusiya sülhməramlılarının bölgədən çıxarılması və o missiyaya beynəlxalq alternativlərin təklif olunması da məhz Qərbin dağıdıcı yol tutduğunu deməyə əsas verir".

**■ "ABŞ-nin bu təhdidlərinə təzyiq vasitəsi kimi baxmaq lazımdır. Rusiyanın Cənubi Qafqazdan sıxışdırılıb-çıxarılmasını özü üçün prioritet elan edən ABŞ Ermənistandan sonra Azərbaycanı da özünə ram etmək istəyir".** Bunu isə hafta.az-a politoloq Rəşad Bayramov ABŞ-nin Azərbaycanı təhdid edən mesajları, İran üzərindən keçən yola qarşı çıxması və Azərbaycanı sanksiyalarla hədələməsi ilə bağlı şərhində bildirib.

Politoloq qeyd edir ki, ABŞ bu təzyiq yolu ilə Azərbaycanı Qərbin maraqlarının icraçısına çevirmək istəyir. ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O-Braynın sülh danışıqlarında inkişaf olmayanadək Azərbaycana birbaşa yardımı qadağan edən 907-ci düzəlişdən imtinanın müddətinin uzadılmayacağı ilə bağlı hədələri də bunun bariz sübutudur.

"Münaqişə tərəflərindən biri olan Ermənistana təhlükəsizlik yastığı vəd edən, ordusunun möhkəmləndirilməsinə yardım vədləri verən ABŞ-nin digər dövləti, yəni Azərbaycanı sanksiyalarla hədələməsi heç bir çərçivəyə sığmır. Əvvəla, ona görə ki, regionda sülh təşəbbüsü ilə çıxış edən ölkə Azərbaycandır. Əgər ABŞ həqiqətən də sülh danışıqlarında inkişaf istəyirsə, onda Azərbaycan deyil, Ermənistana təzyiq etməlidir. Digər tərəfdən, Ermənistandan fərqli olaraq Azərbaycanda Rusiyanın hərbi bazaları mövcud deyil, sülhməramlıların ərazilərimizi tərk etməsinə isə elə də çox vaxt qalmayıb. ABŞ unudur ki, Rusiya sülhməramlılarının ərazilərimizdə qalma müddətinin 20 il uzadılması təklifi ilə çıxış edən Ermənistan bundan imtina edənsə Azərbaycan olub. Biz təbii olaraq ərazilərimizdə hər hansı xarici qüvvənin qalmasında maraqlı deyilik. Qərbin səhv siyasəti, davamlı təzyiqləri bizi faktiki olaraq Rusiya ilə yaxınlaşdırır".

R.Bayramov eyni zamanda qeyd edib: "Azərbaycanın İran üzərindən keçən nəqliyyat dəhlizinin yolverilməz olduğunu deyən ABŞ rəsmiləri unudurlar ki, ölkəmizi həmin yola məcbur qoyan da elə məhz özləridir. Əgər ABŞ və Ermənistanın Avropadakı digər havadarları zamanında Zəngəzur dəhlizinin açılması üçün Ermənistana təzyiq göstərsəydilər, o zaman bizim də İran üzərindən hər hansı yola ehtyacımız qalmazdı. Yaxud əgər ABŞ həqiqətən də Rusiyanın Cənubi Qafqazı tərk etməsini istəyirsə, bunun üçün ilk növbədə, öz siyasətində düzəlişlər etməlidir. Başqa sözlə desək, ilk növbədə, sülh sazişinin bağlanması üçün Ermənistana təzyiq göstərməli və Zəngəzur dəhlizinin açılmasını təmin etməlidir. Sülh olacaqsa, ərazilərimizdə qalmağa can atan Rusiyanın da hər hansı bəhanəsi qalmayacaq. Ermənistanı bütün səviyyədə dəstəkləyərək, Azərbaycana qarşı təhdid və hədə dilində danışmaq çıxış yolu deyil və bunun əks-təsiri ola bilər".

✍ **Tahirə Qafarlı**

---

## Müsahib

***Bu gün Fransanın, ABŞ-ın Ermənistanı ciddi-cəhdlə silahlandırması Cənubi Qafqaz regionunun gələcəyi kontekstində birmənalı qarşılanmır. Başqa bir dövlətin ərazi bütövlüyünə, suverenliyinə qarşı işğal siyasəti yürüdən Ermənistan beynəlxalq hüquq normaları ilə məhkəmələrə cəlb olunmalı olduğu halda, özünü həmin o normaların etalonu sayan Avropa və Qərb, nədənsə, işğalçını silahlandırmağa daha çox həvəs göstərirlər.***

# Müharibə ehtimalı azdır



**Ədalət Verdiyev,**
hərbi ekspert

Bu kontekstdə Ermənistanın KTMT demarşı və Rusiyanın buna cavabının necə olacağı, İran sərhədlərində Fransa və ABŞ-ın timsalında NATO silahlarının peyda olmasına hansı reaksiyanın veriləcəyi və sair sualların cavabı, həm də yeni gərginlik ocağının yaranacağından xəbər verir. Bu istiqamətdə hərbi ekspert Ədalət Verdiyev "Həftə içi"nə danışdı.

Ekspert bildirir ki, söhbət Fransanın Ermənistana verdiyi "Bastion" zirehli personal daşıyıcılarından gedirsə, bu üçün bir qədər təmkinli davranmağa və yaxud bu məsələləri hələlik qapalı şəkildə müzakirə etməyə üstünlük verir. O, Rusiya hərbi bazalarının Ermənistandan çıxarılması məsələsinin sadə proses olmadığını qeyd edib: "Rusiya hərbi bazalarının çıxarılması Ermənistan üçün elə də asan olmayacaq. Bu proseslər kifayət qədər ağrı-acılı, bəlkə də silahlı toqquşmalara qədər gətirib-çıxara biləcək prosesdir. Belə bir şəraitdə Azərbaycanın sərgilədiyi mövqeyə, münasibətə gəlincə, Azərbaycan

> *Əgər Ermənistan silahlanırsa, demək yeni toqquşmalara hazırlaşır*



texnikalar Yaxın Şərq və Afrika iqliminə uyğunlaşdırılıb, onların Ermənistan üçün effektivlik dərəcəsi böyük sual altındadır. Fransanın bu addımı Ermənisanı bir qədər cəsarətləndirsə də, güc balansına və ya Azərbaycanla Ermənistan arasında hərbi potensial fərqinə təsir etməz:

"Hindistandan və Fransadan Ermənistana edilən silah tədarükü İrəvana xoşbəxtlik gətirməyəcək. Bəlkə də tam əksinə. Ola bilsin, Ermənistan hərbi təxribatları davam etdirsin. Bu isə əvvəlki təxribatlarda olduğu kimi, Ermənistan üçün çox ağrılı, acılı nəticələrə gətirib çıxaracaq". Ə.Verdiyev hesab edir ki, Ermənistanın KTMT-yə qarşı addımları Rusiya tərəfindən kifayət qədər sərt bir şəkildə qarşılanacaq:

"Rusiyanın Ermənistan ərazisində qoşun saxlaması üçün 2044-cü ilə qədər müqaviləsi mövcuddur və Rusiyanın 102-ci hərbi bazası da bugünkü günə qədər Ermənistan ərazisində fəaliyyətini davam etdirir. Bu məsələlər, bəlkə də Ermənistanın yaxın perspektivdə Suriyaya çevrilməsinə qədər gətirib-çıxara bilər. Hər halda, Kreml Ermənistanın bu addımlarını sərt şəkildə qarşılayacaq və onu mümkün qədər öz təsir dairəsində saxlamaq üçün müəyyən addımlar atacaq. Bu addımlar da Ermənistan daxilində cəmiyyətin parçalanmasına və mövcud təhlükəsizlik konsepsiyasının dağılmasına gətirib çıxaracaq".

Ə.Verdiyev hesab edir ki, hazırkı mərhələdə İran öz sərhədlərində NATO silahlarının, ABŞ-ın, Fransanın iştitrakını görməkdən narahat olsa da, bunu aşkar şəkildə büruzə vermir. Ekspertin fikrincə, İranın Avropa ilə bağlantısı Ermənistan üzərindən olduğu hadisələri diqqətlə izləyir. Azərbaycan Ermənistanın yeni bacılarının verdiyi silahların növünü, tərkibini öyrənir və mümkün təxribatlarına qarşı alternativ addımlarını planlaşdırır, bunu keçirilən təlimlərə, döyüşə yaxın şəraitdə cilalayır".

Ekspert bu gün Ermənistanın Ukraynanın taleyinə bənzər ömür yaşadığını müqayisələr aparmaqla önə çəkib: "İndiyə qədər Avropa İttifaqı və ya ABŞ-ın hərbi dəstək verdiyi ölkələrdən hansı biri münaqişələrdən qalib ölkə və yaxud da minimal itkilərlə çıxıb? ABŞ, Qərb kimə dəstək veribsə, o cümlədən Ukraynanın, Əfqanısatanın, Gürcüstanın aqibəti hamıya məlumdur". Ə.Verdiyev baş verən bütün proseslərin kontekstində hesab edir ki, hazırda bölgədə müharibə ehtimalı çox da böyük deyil:

"Ən azından Vətən Müharibəsindən sonrakı dövrdə Ermənistanla şərti sərhəddə atəşkəsin minimum pozulması halları ilə rastlaşmırıq. Bunu nə Ermənistan tərəfi, nə də Azərbaycan tərəfi rəsmi olaraq məlumatlarında da qeyd edir. Təbii ki, sülh imkanları mövcudur, perspektivlər də var.

Ermənistanın həqiqətən də sülh istəməyinə dair əlimizdə faktlar yoxdur. Əgər Ermənistan silahlanmaya meyillənirsə, bunun adını sülh naminə addım adlandırmaq olmaz. Əksinə, 30 il işğal tarixinə malik Ermənistan silahlanma barədə düşünüb, bu istiqamətdə real addımlar atırsa, bu, Azərbaycana qarşı döyüş potensialını bərpa etmək, yaxın və orta perspektivdə təxribatlara, toqquşmalara aparacaq addımlar atmaq istəyindən xəbər verir".

✍ **Tahirə Qafarlı**

# “Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir”

## Layihə

***Bu gün Azərbaycanın tranzit ölkə kimi beynəlxalq əhəmiyyəti sürətlə artır. Təbii ki, bu hal heç də təsadüfi deyil. Məhz ulu öndər Heydər Əliyevin təməlini qoyduğu uzaqgörən siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin bariz nümunəsidir. Qeyd edək ki, ümummilli liderin respublikamıza ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illəri Azərbaycanın quruculuq salnaməsinin ən zəngin səhifələrindən hesab etmək olar. Həmin illər tariximizə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəliş dövrü kimi daxil oldu.***




“Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir” vurğulayan dahi lider hakimiyyətdə olduğu dönəmdə həm də yeni nəqliyyat strategiyasının təməlini qoyur. Belə ki, hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmiş Heydər Əliyevin ardıcıl diqqət və qayğısı sayəsində Azərbaycanda nəqliyyat sektoru xeyli təkmilləşir, inkişaf edir. Sahəyə göstərilən diqqətin nəticəsi olaraq 1970-ci ildə Azərbaycan SSR-də nəqliyyat və rabitəyə 147 milyon manat, 1982-ci ildə isə 214 milyon manat əsaslı vəsait qoyulur və 1970-1982-ci illərdə nəqliyyat sahəsində əsas fondların artımı 79 faiz təşkil edir. Bu illər ərzində baş dəmir yollarının istismar uzunluğu 181,1 kilometrdən 1903 kilometrə, elektrikləşdirilmiş dəmir yollarının uzunluğu 794 kilometrdən 1111 kilometrə, stansiya yollarının ümumi uzunluğu 954 kilometrdən 1343,5 kilometrə çatır, 372 ədəd yeni yoldəyişdirici quraşdırılır.

XX əsrin 70-ci illərində Heydər Əliyevin tövsiyəsi ilə Yevlax-Balakən dəmir yolu xəttinin tikintisi üzrə 6 yeni stansiya və vağzal binası (Balakən, Zaqatala, Qax, Şəki, Xanabad) istifadəyə verilib. Elə bu illərdə Sumqayıt, Sabunçu, Goran, Ağstafa, Əli Bayramlı (indiki Şirvan), Ucar, Gəncə, Tovuz, Qazax, Kürdəmir, Daşburun, Horadiz, Bərdə, Ağdam, Xankəndi stansiyalarında müasir vağzal binaları, Culfa stansiyasında xarici ölkələrdən gəlib-gedənlər üçün yeni vağzal binası və qonaq evi, Bakıda yeni sərnişin vağzalı inşa olunur. 1970-1982-ci illərdə dəmir yolunda yük dövriyyəsi 10 min 917 milyon ton artaraq 35 min 510 milyon ton, sərnişin dövriyyəsi isə 581 milyon sərnişin artaraq 2257 milyon sərnişin olur. O cümlədən avtomobil nəqliyyatının infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində görülən işlər sayəsində 1970-1982-ci illərdə avtomobillə yük dövriyyəsi 4824 milyon ton və ya 2,3 dəfə artır. Təbii ki, analoji hal hava və su nəqliyyatında da müşahidə edilir, hər iki növ üzrə sərnişin və yük daşınması, eləcə də dövriyyəsində ciddi artımlara nail olunur. Eyni zamanda, həmin illərdə qəbul olunmuş “Azərbaycan SSR-in avtomobil yollarının tikintisi, təmiri və təminatını yaxşıllaşdırmaq üçün gələcək tədbirlər haqqında” qətnamə respublikamızda avtomobil yolları şəbəkəsinin genişləndirilməsinə, yol infrastrukturunun yenidən qurulmasına imkan yaradır. Məhz həmin sənədə əsasən, yolların keyfiyyətini Ümumittifaq səviyyəsinə qaldırmaq üçün yol infrastrukturunun inkişafına yönəldilən kapital qoyuluşunun həcmi xeyli artırılır. Bütövlükdə XX əsrin 70-80-ci illərində Heydər Əliyev tərəfindən Azərbaycanda nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi və yol tikintisi sahəsində həyata keçirilən quruculuq işləri müstəqil Azərbaycan Respublikasının iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev bütün bacarığını səfərbər edərək ölkədə mövcud tənəzzülü dayandırır və tərəqqiyə nail olur. Bu istiqamətdə 1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” xüsusilə diqqəti cəlb edir. yMəlumdur ki, 1994-cü il sentyabrın 20-də Bakı şəhərində Xəzər ydənizinin Azərbaycana aid sektorunda yerləşən “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə istismarı ilə bağlı dünya dövlətlərini təmsil edən 12 iri neft şirkəti arasında beynəlxalq müqavilə imzalanır. Bununla da, milli iqtisadiyyatın inkişafında xüsusi rol oynayan, bütün sahələrdə əldə edilən uğurların əsas təkanvericisi olan “Yeni neft strategiyası” uğurla həyata keçirilməyə başlanır. Həmin vaxt “Əsrin müqaviləsi” üzrə hasil edilən Azərbaycan neftinin dünya ybazarlarına ixracı üçün ilkin dövrlərdə buraxıcılıq qabiliyyətləri ildə 5 milyon ton olan Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə olunurdu. Lakin yaxın illərdə müqaviləyə daxil olan yyataqlar üzrə illik hasilatın 50 ymilyon tona çatdırılacağını nəzərə alan Heydər Əliyevin təşəbbüsü ilə daha böyük nəqletmə yimkanına malik ixrac marşrutları araşdırıldı və optimal variant kimi Bakı-yTbilisi-Ceyhan (BTC) əsas yixrac boru kəməri seçildi. Məhz buna görə də layihənin yhəyata keçirilməsində Heydər Əliyevin əvəzsiz xidmətlərini nəzərə yalan layihə iştirakçıları 2004-ycü ildə BTC əsas ixrac boru kəmərinə dahi şəxsiyyətin adının verilməsi ybarədə qərar qəbul etdilər. Beləliklə də “Üç dənizin əfsanəsi” adlanan BTC layihəsi reallığa çevrilərək xalqımızın maddi rifah halının yaxşılaşdırılması və doğma Azərbaycanın qüdrətli dövlət olmasına öz töhfəsini verməkdədir.

Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən TRASECA proqramı çərçivəsində Qərb-Şərq nəqliyyat dəhlizinin Azərbaycanın ərazisindən keçməsində də ulu öndərin gərgin fəaliyyəti və qətiyyəti əvəzsiz rol oynayıb. 1998-ci ilin sentyabr ayında Heydər Əliyevin təşəbbüsü ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxaq konfransın məhz Bakıda keçirilməsi də bunun bariz nümunəsidir. Yeri gəlmişkən, 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələrinin iştirak etdikləri konfransda Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çox mühüm sənədin imzalanması əlverişli geosiyasi mövqedə yerləşən Azərbaycanın regionda etibarlı tərəfdaş kimi mövqeyini daha da artırdı.

Yeri gəlmişkən xatırladaq ki, 1993-cü ilin may ayında Brüsseldə təşkil edilmiş konfransda TRASECA Proqramının (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) təşəbbüskarlarından biri də məhz Azərbaycan Respublikası olub. Konfransın yekununda TRASECA Proqramının icrasını nəzərdə tutan Brüssel Bəyannaməsi qəbul edilib. TRASECA Proqramı çərçivəsində, eləcə də Proqramdan irəli gələn Əsas Çoxtərəfli Sazişin hədəflərinin reallaşdırılması məqsədilə ölkəmizdə çoxsaylı və genişmiqyaslı layihələr həyata keçirilib. Xüsusilə, 1998-ci ildən sonra ardıcıl şəkildə icra olunan proqram və layihələr nəticəsində milli nəqliyyat sisteminin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə edilib.

Hazırda Azərbaycan özünün sosial-iqtisadi inkişafının yeni yüksəliş dövrünü yaşayır. Ölkə həyatının bütün sahələrində yüksək tərəqqi, sürətli inkişaf nəzərə çarpır. Bu da təsadüfi deyil. Ölkə başçısı cənab İlham Əliyevin son illər həyata keçirdiyi uğurlu islahatlar ölkəmizin iqtisadi yüksəlişində, beynəlxalq müstəvidə siyasi dayaqlarımızın daha da möhkəmlənməsində, ölkədaxili sabitliyin qorunmasında, eləcə də regionların inkişafında müstəsna rol oynayıb. Bu gün müstəqil Azərbaycan sürətli və dinamik inkişaf yolunda inamla irəliləyərək regionun lider dövlətinə çevrilib, qlobal iqtisadi layihələrin təşəbbüsçüsü və iştirakçısı kimi tanınır.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

HEYDƏR ƏLİYEV İLİ

“Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirəcəyik” deyən dövlət başçısının rəhbərliyi ilə Böyük İpək Yolunun bərpası istiqamətində davamlı işlər görülür. Nəhayət Azərbaycan 2005-ci ildə Şimal-Cənub nəqliyyat dəhlizinə də qoşuldu. Beləliklə də, ölkənin Şərq-Qərb (Böyük İpək Yolu) və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində Avropa və Asiyanın mühüm nəqliyyat qovşağına çevrilmək imkanları daha da artdı. Azərbaycan yeganə ölkədir ki, “Şimal-Cənub” və “Şərq-Qərb” nəqliyyat dəhlizləri layihələrinin ikisində də iştirak edir.

Regionda reallaşan hər bir nəqliyyat layihəsində əsas aparıcı dövlət olan Azərbaycan beynəlxalq əhəmiyyətli dəmir yollarının tikintisi və yenidən qurulmasına da böyük əhəmiyyət verir. Bunun bariz nümunəsi olan və dünyanın ən iri 100 layihəsindən biri sayılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun tikintisi Prezident İlham Əliyevin birbaşa rəhbərliyi və dəmir iradəsi ilə həyata keçirilib. BTQ dəmir yolu xətti Asiya ilə Avropa arasında ən qısa və rahat yol olub yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox azaltmağa imkan verir.

Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən və 4 hektara yaxın ərazidə tikilən Ələt terminalı isə ölkəmizin nəqliyyat-tranzit və logistika imkanlarını daha da artırıb. Ölkəmizin regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi olan yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi (Ələt) ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malikdir. Eyni zamanda, Azərbaycanın əsas dəmir yolu və magistral şəbəkələrinin birləşdiyi mərkəz kimi limanın məqsədlərinin yerinə yetirilməsinə kömək edərək regional və qlobal təchizat zəncirlərində mühüm rol oynayır.

Bütün bunlar onu göstərir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş nəqliyyat strategiyası hazırda uğurla davam etdirilir. Onun ideyası ilə görülən işlər nəticəsində Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərində vacib rol oynayır və uzun illər də oynamağa davam edəcək.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycan Respublikasının Kosmik Agentliyi - Azərkosmos və Braziliya Kosmik Agentliyi arasında kosmos sahəsi üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin xəbərinə görə, memorandum Braziliya və Azərbaycan arasında kosmik elm, texnologiya və tətbiq sahələrinə dair əməkdaşlığı nəzərdə tutur və kosmik sahədə gələcək əməkdaşlıq üçün çərçivə yaratmaqda alət rolunu oynayacaq.

■ İşsiz şəxslər icbari tibbi sığorta xidmətlərindən ödənişsiz istifadə edə biləcək. Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova bildirib.

■ Bu ilin yanvar-sentyabr aylarında Azərbaycana 1 milyard 281 milyon ABŞ dolları məbləğində pul baratları daxil olub. Azərbaycan Mərkəzi Bankının “Pul siyasəti icmalı”ndakı məlumata görə, bu göstəricinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 53,9% azalıb. Belə ki, 2022-ci ilin müvafiq dövründə Azərbaycana 2 milyard 779 milyon dollar pul baratları daxil olub.



■ Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ-nin keçmiş lideri Donald Trampla onun Ukraynadakı münaqişəni nizamlamaqla bağlı planını müzakirə etməyə hazırdır. Bu barədə Zelenski “Fox News”a müsahibəsində danışıb. “Gəlin Trampla danışaq, ona fikrini ifadə etməyə və onun sülh formulunda hansı addım və fəaliyyətlərin olduğunu nümayiş etdirməsinə imkan verək”, - deyə Zelenski qeyd edib.

■ Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı aktiv portfelinin həcmi bu il oktyabrın 31-nə 948 mln. avroya kimi (ödənilməmiş öhdəliklər daxil olmaqla) artıb. Bu rəqəm bank tərəfindən təqdim edilən əvvəlki göstərici ilə müqayisədə 16,5% və ya 134 mln. avro çoxdur. İcra edilən aktiv layihələrin sayı isə 31 olaraq qalıb.

■ Türkiyə 2023-cü ilin yanvar-oktyabr aylarında Azərbaycana hazır geyim məhsulları ixracını ötən ilin eyni dövrü ilə müqayisədə 15,9 faiz artıraraq, 63,9 milyon dollara çatdırıb. Bu barədə Türkiyə Ticarət Nazirliyindən bildirilib. Oktyabr ayında Türkiyənin Azərbaycana hazır geyim məhsulları ixracatı 2022-ci ilin eyni ayı ilə müqayisədə 3,8 faiz azalaraq 7,1 milyon dollar olub.



■ ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Ceyms Obrayenin Azərbaycan və Ermənistanın Amerikadakı səfirləri ilə ayrı-ayrılıqda görüşdüyü bildirilir. “Amerikanın səsi” Obrayenin 20 noyabrda Ermənistan səfiri Lilit Makunts, 21 noyabrda isə Xəzər İbrahimlə görüşdüyünü yazıb. Görüşlər mətbuata qapalı keçirildiyindən onlar haqqında başqa təfərrüat məlum deyil.

■ İsrail Ədliyyə Nazirliyi HƏMAS ilə girov müqavilələri çərçivəsində azad edilməsi planlaşdırılan 300 fələstinli məhbusun siyahısını dərc edib. Bu barədə “RİA Novosti” məlumat yayıb. Qeyd edək ki, İsrail və HƏMAS-ın dördgünlük atəşkəsə və girovların dəyişdirilməsinə razılaşdıqları haqda məlumat yayılıb.

# “Azərbaycanın “HƏMAS”- İsrail qarşıdurması ilə bağlı mövqeyi ən optimaldır”

***Oktyabrın 7-dən “HƏMAS” qruplaşmasının İsrailə gözlənilməz hücumu və bunun nəticəsi olaraq İsrail Silahlı Qüvvələrinin Qəzzada genişmiqyaslı hərbi əməliyyatlar aparmaqla 13 mindən çox dinc insanın - uşaq, qadın və qocanın ölümünə səbəb olmasından sonra Azərbaycanda da bu mövzuda media və sosial şəbəkələrdə virtual mübahisələr güclənib.***



Kimlərsə müsəlman təəssübkeşliyini rəhbər tutaraq, yalnız “HƏMAS”ı müdafiə edir, onun gözlənilməz hücumuna haqq qazandırır, digərləri isə xüsusən 44 günlük savaşda İsrailin Azərbaycanın yanında olmasını əsas tutaraq bu dövlətin etdiklərini doğru hesab odur. Bəs əslində, Azərbaycan xalqının bu qarşıdurmaya münasibəti necə olmalıdır?

**■ Mövzu ilə bağlı hafta.az-a açıqlamasında siyasətçi Etibar Məmmədov bu fikirləri ifadə edib:** “Əslində, Azərbaycan Dövlətinin “HƏMAS” - İsrail qarşıdurmasına münasibətdə tutduğu mövqe normal və konstruktivdir. Rəsmi Bakı İsraillə də yüksəksəviyyəli münasibətlərini saxlayır, lakin eyni zamanda, Fələstin dövlətinin yaradılmasını qəbul edir, yəni 1967-ci il sərhədləri çərçivəsində iki dövlətin yaradılmasının tərəfdarıdır. Bu, ən konstruktiv mövqedir. Hesab edirəm, Azərbaycan xalqı da bütövlükdə belə bir mövqe sərgiləməlidir. Həm də ona görə ki, kimlərinsə qəti şəkildə müdafiə etdiyi “HƏMAS” - Fələstin muxtariyyətinin özü tərəfindən terror təşkilatı kimi tanınır. Yarandığı dövrdən də, nizamnaməsində də, məramnaməsində də göstərib ki, bir siyasi təşkilat kimi onun vəzifəsi İsrail dövlətini məhv etməkdir.

“HƏMAS” 1980-ci illərin sonlarından öz ilk fəaliyyətinə İsrail hərbçilərinin oğurlanmasıyla başlayıb, bu səpkidə də davam ediblər”. Siyasətçi hesab edir ki, Azərbaycan tərəfi bəhs edilən münaqişəyə müdaxilə etməməlidir:

*Kimlərinsə qəti şəkildə müdafiə etdiyi “HƏMAS” - Fələstin muxtariyyətinin özü tərəfindən terror təşkilatı kimi tanınır*



**Etibar Məmmədov,**
siyasətçi

“Hazırkı qarşıdurma da əslində İsrail-Fələstin deyil, İsrail-“HƏMAS” məsələsidir. Ona görə də ərəb dövlətlərinin bir çoxu da “HƏMAS”ı terror təşkilatı kimi tanıyırlar. İndiyədək onu müdafiə edənlər də artıq onun müdafiəsindən geri çəkiliblər. Biz də arzu etməliyik ki, tezliklə bu münaqişənin hərbi fazası dayansın. Yəni dinc insanların həlak olması, yaralanması və ev-eşiyindən məhrum olması böyük faciədir və biz bunun əleyhinə olmaqla yanaşı, eyni zamanda həmin münaqişəyə müdaxilə də etməməliyik. Bir daha təkrar edirəm ki, dövlətimizin bu münaqişə ilə bağlı mövqeyi ən optimal mövqedir”, - deyə Etibar Məmmədov vurğulayıb.

***✍ Sultan***

# Ermənilərin əksəriyyəti Qarabağa qayıtmaq istəmir

***Beynəlxalq məsələlər üzrə analitik Teymur Qasımlı ilə hafta.az üçün bu dəfəki söhbətimizdə regionda və bölgədə baş verən son olaylar fonunda Azərbaycan-Ermənistan sülh danışıqlarının perspektivi, iki ölkənin vasitəçisiz danışıq aparmasının mümkünlüyü, Beynəlxalq Ədalət Məhkəməsinin Azərbaycanın ermənilərin Qarabağa qayıtmasının təhlükəsizliyini təmin etməsi haqda qərarından sonra Ermənistana və artıq bir hissəsi xaricə köçmüş ermənilərin kütləvi şəkildə geri dönməsi ehtimalı, ABŞ və Çin liderlərinin San-Fransiskodakı son görüşünün dünyadakı proseslərə, o cümlədən Yaxın Şərq və Ukraynadakı münaqişələrin həllinə təsiri və gündəmdə olan digər mövzulara toxunduq.***


**Teymur Qasımlı,**
Beynəlxalq məsələlər üzrə analitik

## Müsahib

***- Teymur bəy, ölkəmizin Qərblə, ABŞ-la münasibətlərinin gərginləşdiyi bir vaxtda Azərbaycan-Ermənistan sülh danışıqlarının perspektivini necə görürsüz?***

- Azərbaycan və Ermənistan arasındakı sülh danışıqlarının perspektivindən danışarkən demək olar ki, hələlik diplomatik oyunlar gedir. Hər iki tərəf öz gedişlərini diqtə edir. Burada çox qarışıq, ziddiyyətli və mürəkkəb tərəflər var. Amma Paşinyanın Rusiya mediasına verdiyi müsahibədə də dediyi kimi, sülh danışıqlarında bir çox məsələlər razılaşdırlıb. Lakin sərhədlərin delimitasiya, demarkasiyası və anklavlar məsələləri hələlik həll olunmayıb. Azərbaycanın Qərblə, ABŞ-la münasibətlərinin gərginləşdiyi belə bir durumda yalnız Rusiyanın vasitəçiliyi ilə Ermənistanla sülh danışıqları istiqamətində hansısa addımlar atıla bilər. Burada da nəzərə çarpmayan diplomatik oyunlar gedir...

***- Necə hesab edirsiz, hazırkı durumda Azərbaycan və Ermənistanın vasitəçisiz danışıq aparması mümkündürmü?***

- Mən də Azərbaycanla Ermənistan arasında vasitəçisiz danışıqların tərəfdarıyam. Azərbaycan Prezidenti cənab İlham Əliyev də Qarabağdakı lokal əməliyyatlardan sonra mətbuata açıqlamasında Ermənistanın vasitəçilərlə danışıqlara razı olmadığı halda Azərbaycanın birbaşa vasitəçisiz danışıqlara hazır olduğunu bildirmişdi. Hesab edirəm ki, hər iki ölkə başçısının Rusiyasız, Qərbsiz, Amerikasız, Avropasız birbaşa dialoqu daha tez və effektiv nəticə verə bilər. Və hər iki lider iradə göstərərlərsə, belə danışıqlar baş tuta və sülh sazişi ilə nəticələnə bilər...

***- Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyasından öncə sülh sazişini imzalamaq olarmı?***

- Əslində istənilən ölkə ilə sərhədlərin delimitasiya və demarkasiyası uzun sürən proseslərdir. Rusiya ilə sərhədlərimizin müəyyənləşməsi yalnız 2010-ci ildə, təxminən 20 ilə yekunlaşdı. Gürcüstanla isə 32 ildir ki, hələ də delimitasiya və demarkasiya məsələlərində müəyyən problemlər qalır. Ona görə də, təbii ki, Ermənistanla sülh müqaviləsi sərhədlərin delimitasiya və demarkasiyasından öncə imzalana bilər. Amma baxır hansı şərtlər çərçivəsində... Yəni müqavilə Azərbaycanın maraqlarına elə uyğunlaşdırılmalıdır ki, sonradan Ermənistan tərəfi cığallıq edib razılaşmanı pozmasın, delimitasiya və demarkasiya məsələlərindən qaçmasın. Bütün hallarda belə düşünürəm ki, sərhədlərin dəqiqləşdirilməsi sülh sazişindən sonraya da qala bilər, ancaq anklavlar və eksklavlar məsələsi sülh danışıqlarından öncə həllini tapmalıdır...

***- Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın ermənilərin Qarabağa qayıtmasının təhlükəsizliyini təmin etməsi haqda qərar verdikdən sonra, sizcə, Ermənistana və artıq bir hissəsi xaricə köçmüş ermənilər kütləvi şəkildə geri dönəcəklərmi?***

- Birincisi, Beynəlxalq Ədalət Məhkəməsinin ermənilərin Qarabağdan köçü məsələsini gündəliyinə çıxarmasını və bu haqda qərar verməsini və s. doğru hesab etmir və qınayıram.

Bu, nə beynəlxalq hüquq, nə də mənəvi baxımdan uyğun sayılır. Çünki 1988-ci ildən 2020-ci ilədək 32 il ərzində Azərbaycanın 1 milyondan çox qaçqın və məcburi köçkünü olsa da, torpaqlarımız işğal edilsə də, BMT-nin kağız üzərində qalmış qətnamələri istisna olmaqla, heç bir beynəlxalq qurum həmin hadisələri qınayan bir qərar qəbul etmədi. Ona görə biz də gec olsa da, Ermənistanın bu günədək Azərbaycana qarşı törətdiyi bir çox hadisələri Beynəlxalq Ədalət Məhkəməsinin müzakirələrinə çıxarmalıyıq. Qaldı Qarabağdan Ermənistana və xaricə köçmüş ermənilərin yenidən kütləvi şəkildə geri qayıtmasına, mən onların əksəriyyətinin geri qayıtmaq istədiyini düşünmürəm.

Özü də indiyədək o Azərbaycan torpaqlarında məskunlaşmış ermənilərin çoxu nəsilləri XIX əsrin əvvəllərindən orada yaşamış yerli, Qarabağ erməniləri deyildi. Onların xeyli hissəsi İraqdan, Suriyadan, Livandan və s. qanunsuz olaraq köçürülmüş ermənilər idi. Ermənilərin bu növbəti geri qaytarılması məsələsi də Kremlin özünün tülkü, hiyləgər oyunudur. Və bu, 2025-ci ildə Rusiya əsgərinin Qarabağdan - Azərbaycan ərazisindən çıxmamasına hesablanıb. Xülasə, Beynəlxalq Ədalət Məhkəməsinin qərarları, Rusiyanın oyunları oldu-olmadı, ermənilərin Qarabağa geri dönüb orada kütləvi şəkildə yaşayacağına inanmıram... Və ümumiyyətlə, hələ ermənilərlə azərbaycanlıların dinc yanaşı yaşaması perspektivini gələcək, azı 20-30 il ərzində görmürəm...

*“Hər iki ölkə başçısının Rusiyasız, Qərbsiz, Amerikasız, Avropasız birbaşa dialoqu daha tez və effektiv nəticə verə bilər*

*Müqavilə Azərbaycanın maraqlarına elə uyğunlaşdırılmalıdır ki, sonradan Ermənistan tərəfi cığallıq edib razılaşmanı pozmasın*

*İsrail-“HƏMAS” qarşıdurması da Türkiyə-İsrail münasibətlərini son həddə qədər gərginləşdirməyəcək*

***- ABŞ və Çin liderlərinin San-Fransiskodakı son görüşü dünyadakı proseslərə, o cümlədən Yaxın Şərq və Ukraynadakı münaqişələrin həllinə necə təsir göstərəcək?***

- ABŞ və Çin liderlərinin son görüşü önəmlidir. Son zamanlar ABŞ-la Çin arasında müəyyən gərginlik var idi. Mənim üçün burada ən önəmli Tayvan məsələsinin müzakirəsi olub. Son məlumatlara görə, 4 saatlıq görüşdə ən çox müzakirə olunan və razılığa gəlinməyən məsələ məhz Tayvan məsələsi olub. Və bu məsələdə, təəssüf ki, razılığa gəlinmədi. Çin Rusiya-Ukrayna savaşından istifadə edərək neytrallıq qorumaq şərti ilə Tayvanı işğal etmək istəyir. Güc yoluyla da müəyyən bleflər tətbiq etməyi düşünür...

Rusiyanın Ukraynaya təcavüzü məsələsində Kiyev kimi Vaşinqton da rəsmi Pekinin mövqeyindən razıdır. Çünki Çin dövləti bu məsələdə rəsmən olsa da, neytrallıq nümayiş etdirir...

Yaxın Şərqdəki böhranın həllinə ABŞ-Çin liderlərinin görüşünün təsirinə gəlincə, son dövrlərdə Çin özü İran və Səudiyyə Ərəbistanı arasında yumşalma yaranmasında, eləcə də İraqda sabitlik əldə olunmasında müəyyən dərəcədə rol oynayıb. Çinin İsraillə də münasibətləri normaldır. Hətta iddialar var idi ki, rəsmi Pekin İsraillə İran arasında da vasitəçilik etməyə çalışır. Amma Cozef Bayden-Si Cinpin görüşünün İsrail-“HƏMAS” qarşıdurmasını durdurmaq üçün hansısa təsirinin olacağını düşünmürəm. Və indiki şəraitdə ABŞ-dan fərqli olaraq ayrıca Çinin də Yaxın Şərqdəki böhranın həllində aparıcı rolu ola bilməz. Çin lideri Si Cinpin noyabrın 20-də İsrail-“HƏMAS” qarşıdurmasına ikitərəfli atəşkəs təklif edib. Bu dövlətin Yaxın Şərqdəki böhrana təsiri yalnız bundan ibarətdir...

***- Türkiyənin İsrail-“HƏMAS” qarşıdurmasıyla bağlı kəskin mövqeyi Türkiyə-İsrail qarşıdurmasına gətirib çıxarmaz ki?***

- Türkiyə ilə İsrail arasında zaman-zaman böyük gərginliklər yaşanıb. Halbuki, İsraili dövlət kimi tanıyan ilk müsəlman ölkələrindən biri məhz Türkiyə olub. 1956-cı ildə İsrailin qurucusu, o vaxtkı baş nazir Ben Qurion Ankaraya məxfi səfərə gəlib. Orada baş nazir Adnan Menderes və Prezident Celal Bayarla görüşüb. Bütün bunların sayəsində 1960-cı illərdə Türkiyə ilə İsrail arasında çox sıx əməkdaşlıq yaranıb. Lakin XX əsrin 70-80-ci illərində iki ölkə arasında müəyyən gərginliklər yaşanıb. Rəcəb Tayyib Ərdoğanın iqtidara gəlişindən sonra isə Fələstin məsələsinin, “HƏMAS”-ın ön plana çıxarılması belə gərginlikləri artırıb. Lakin sonuncu dəfə belə gərginlik barışıqla bitmək üzrə idi və İsrailin şərtlərindən biri Türkiyənin “HƏMAS”a dəstək olmaması idi.

Hesab edirəm ki, son İsrail-“HƏMAS” qarşıdurması da Türkiyə-İsrail münasibətlərini son həddə qədər gərginləşdirməyəcək. Türkiyə Qəzza zonasında atəş altında qalan dinc əhaliyə humanitar yardım göstərir, eyni zamanda atəşkəs yaranması və hər iki tərəfdən girovların dəyişdirilməsi istiqamətində çabalar göstərir. Və eyni zamanda milli maraqlarının təmin olunmasına çalışır. Türkiyə dövlətinin rəhbəri İsrail baş naziri Netanyahu ilə danışmaq istəmədiyini bildirsə də, iki dövlət arasında pərdəarxası diplomatiya davam edir və bu gündən sonra da davam edəcək...

***- Teymur bəy, sizcə, Qərbin Ukraynanı yarıyolda buraxacağı, yəni Rusiyaya qarşı savaşda fəal yardımı dayandıracağı haqdakı informasiyalar nə dərəcədə realdır?***

- Son zamanlar Ukrayna ətrafında qəribə və maraqlı olaylar baş verir. Onların bir çoxu, sadəcə, dezinformasiyadan ibarətdir. Guya ordu komandanı general Zalujnının vəzifəsindən azad edilməsi, Prezident Ofisinin keçmiş müşaviri Arestoviçin ABŞ-a getməsi, Ukrayna hakimiyyəti daxilində müəyyən həbslərin olması və s. Hesab edirəm ki, bütün bunlar Ukraynanın həm birbaşa hərbi, həm də mənəvi-siyasi müdafiəsinin sarsıdılması məqsədi daşıyır. Lakin inanıram ki, belə məqsədlərin heç biri baş tutmayacaq. Və düşünürəm ki, müəyyən fasilələrə rəğmən ABŞ və Avropa İttifaqının Ukraynaya maddi-texniki və siyasi-mənəvi dəstəyi davam edəcək. Amma əsas dəstək hələ ABŞ-dakı seçkilərdən sonra olacaq. Hazırda seçkiqabağı dönəm olduğu üçün müəyyən yumşalmalar ola bilər. Bu mənada bütövlükdə Qərbin Ukraynaya dəstəyi ABŞ-dakı seçkilərin taleyindən də asılıdır. Lakin bütün əngllərə rəğmən dəstək gəlməkdə davam edir. Bundan önəmlisi isə bütün səylər ona yönəlməlidir ki, Ukrayna dövləti mübarizə ruhunu itirmədən işğalçı Rusiyaya qarşı döyüşləri davam etdirib masada güclü otursun...

✍ ***Sultan Laçın***

# Ağdamda böyük istehsal sahələri yaradılır

***20 noyabr tarixində Azərbaycan dövləti və xalqı “Agdam Şəhər Günü”nü böyük fəxr hissi ilə qeyd etdi. Erməni separatçı qüvvələri 2020-ci ildə işğal dövründə viran qoyduğu Ağdam şəhərini bir güllə atmadan azad etməyə məcbur edildi. İndi Ağdam bərpa edilir. “Həftə içi”nə müsahibə verən Şuşa-Ağdam-Xocalı seçki dairəsinin deputatı Elman Məmmədovla söhbətimiz maraqlı alındı:***


**Elman Məmmədov,**
Milli Məclisin deputatı

## Müsahib

***- Ağdamın işğaldan azad olunması hansı reallığı ortaya qoydu?***

- Biz noyabrın 20-də Ağdamın erməni işğalçılarından təmizlənməsinin 3-cü ildönümünü qeyd etdik. Təbii ki, bu, bizim üçün fəxrli, qürurlu, sevincli bir tarixdir. ABŞ tərəfindən Yaponiyaya atılan bombalar Xirosima və Naqasakini hansı dağıntılara məruz qoymuşdularsa, Ağdam şəhəri və kəndləri də Ermənistanın 30 illik işğalı dövründə o vəziyyətə salınmışdı.

Müharibədə əldə edilən zəfərdən sonra Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, bir güllə atılmadan işğalçılardan təmizləndi. Bu, xoşluqla baş verən bir məsələ deyildi. Bu vəziyyət ermənilərin Azərbaycan ordusunun gücü qarşısında tam acizliyini dərk edərək təslim olması idi. Ermənilər 30 il ərzində Ağdamda terorçu Ohanyanın adına 6 cərgədən ibarət müdafiə-istehkam sədləri, bunkerlər yaratmışdılar. Təbii ki, hərbi əməliyyatlar vasitəsi ilə həmin ərazilər azad olunsaydı, hər iki tərəfdən çox sayda itkilər olardı. Ancaq ermənilər dərk elədilər ki, o səddən br nəfər də olsun erməni əsgəri sağ çıxmayacaq. Anladılar ki, Azərbaycan ordusunun gücü qarşısında tab gətirə bilməyəcəklər. Ona görə təslim olaraq ərazimizi tərk etdilər. Bu, Azərbaycan dövlətinin gücündən, qüdrətindən xəbər verir. Azərbaycanın Ali Baş Komandanının, Azərbaycan Ordusunun, əsgər və zabitlərinin qəhrəmanlığından, döyüş qabiliyyətinin yüksək olmasından xəbər verir.

Ermənilər Ağdamdan çıxmalarını şərtləndirən 10 noyabr bəyanatına öz xoşları ilə əməl etmədilər. Cənab Prezident televiziya vasitəsi ilə çıxışında dedi: “Mən burada oturub bu sənədi imzalayıram, Ermənistanın baş naziri harada gizlənib. Və o sənədi harada imzalayıb, bilinmir”. Bu sözlər elə-belə deyilmirdi. Bu sənəd, xüsusilə ermənilərin indi xəyanət edib əleyhinə çıxdığı Rusiya prezidenti Putinə yalvarandan sonra imzalandı. Özləri yalvarsa da, sənəd imzalanandan sonra ona sona qədər əməl etmədilər. Ermənilərin bu hərəkətlərinə təəccüblənməmək üçün tarixinə baxmaq kifayətdir. Ermənilər bütün tarixlərdə, proseslərdə yalançı, xəyanətkar, fırıldaqçı, saxtakar olublar. Bu gün də dəyişməyiblər.

***- Erməni işğalçıları Ağdamdan çıxarılandan sonra orada müşahidə olunan mənzərə nə idi?***

- Erməni işğalçıları Ağdam tamamilə yerlə yeksan edib. Ağdam işğaldan azad ediləndən sonra ora səfər edən əcnəbi jurnalistlər, Azərbaycanda fəaliyyət göstərən bir çox xarici dövlətin diplomatik nümayəndələri, mədəniyyət işçiləri, xarici vətəndaşlar Ağdamı Xirosima, Naqasakiyə bənzətmişdilər. İndi ABŞ senatorları, Fransa parlamentariləri əcnəbilərin Ağdamda görüb səsləndirdiyi fikirləri oxuyub Azərbaycana qarşı ədalətsiz mövqelərindən utansınlar. Bütün bunlara baxmayaraq ABŞ Senatında Azərbaycana qarşı “ermənilərin müdafiə” aktı qəbul etdilər. Yaxşı, bu 30 il ərzində, xüsusilə 1992-93 cü illər ərzində 1988-ci ildən başlayaraq azərbaycanlılar əvvəlcə Ermənistan deyilən dövlətdən son nəfərinə qədər əzab əziyyətlərlə, qırğınlarla qovulanda niyə buna “etnik təmizləmə” demədiniz. Daha sonra Azərbaycan ərazilərində əhalimizə divan tutuldu. Xocalıda, Meşəlidə, Qaradağlıda, Ağdabanda, Ballı qayada, Başlıbeldə ermənilərin vəhşiliyi etnik təmizləmə, soyqırım deyildimi? Niyə Ermənistanın cinayətlərinə susdunuz? Axı etnik təmizləmələri, soyqırımları, talanları, dağıntıları ermənilər azərbaycanlılara qarşı törədib. Heç bir cəza tədbiri görmədiniz. İndi Azərbaycana qarşı sanksiyalar, müxtəlif cəza tədbiləri görmək istəyirsiz. İndi biz ABŞ-ın, Fransanın erməniləri müdafiə etməsinə təəccüblənmirik. Çünki onlar da ermənilər kimi işğalçıdırlar. Fransanın, ABŞ-ın bütün tarixi müstəmləkəçilik, işğalçılıqdır. Onlar öz işğalçı dostlarını -erməniləri müdafiə edirlər.

***- Beynəlxalq ictimaiyyət bu yöndə Ermənistana hansı təzyiqləri göstərdi?***

- Beynəlxalq ictimaiyyət adından hərəkət edən və yaxud BMT adından danışan dövlətlər həmin beynəlxalq ictimaiyyəti də, beynəlxalq hüququ da, BMT-ni də idarə edən dövlətlərdir. Beynəlxalq hüquq 30 il Azərbaycana qarşı törədilən amansızlıqları, qətliamları, soyqırımları görmür. Ancaq ABŞ-da 11 sentyabr hadisəsi baş verəndə beynəlxalq hüquq dərhal meydana gəldi. Başladılar, beynəlxalq hüquqdan istifadə edib Əfqanıstanı dağıtmaq planlarını qurmağa. Getdilər kimyəvi-bakterioloji silah axtarışı ilə İraqı dağıtdılar. Orda nə Ben Ldeni tapdılar, nə də bakterioloji silahları. Amma şəhərləri viran qoydular. O ölkələrdə 10 minlərlə insanı qanına qəltan elədilər. İndi də bu qurumları Azərbaycana qarşı istifadə etməyə çalışırlar. Bu dövlətlərə nə sərf edirsə, bunu düzgün hesab edib məsləyə o mövqedən yanaşırlar.

İndi Ermənistana Avropa missiyası göndərilir. Bu missiyanın tərkibi keçmiş hərbçilərdən, kəşfiyyatçılardan, polislərdən ibarətdir. Guya bunlar gəlib Azərbaycan-Ermənistan arasında sülh yaratmaqla məşğul olacaqlar. Qətiyyən belə deyil. Məqsəd, Ermənistan ordusuna təlim keçmək, Ermənistan ordusunu yenidən müharibəyə hazırlamaq, münasibətləri daha da gərginləşdirmək və Rusiya hərbi kontingentini sıxışdırıb regiondan çıxarmaq və onaların yerində yerləşməkdir. Ermənilər elə başa düşürlər ki, Qərbin bu hərəkətləri erməni sevgisindən doğur. Belə deyil. Tarix boyu ermənilər belə böyük güclərin əlində alət olublar və bunlar ermənilərdən istifadə edib öz dövlətlərinin strateji maraqlarını həyata keçiriblər. I dünya müharibəsi dövründə dövlət yaratmaq adı ilə erməniləri təşkilatlandırılıb, təlimatlandırılıb Osmanlıya qarşı üsyana qaldırdılar. Lakin məqsəd Osmanlını parçalamaq, ondan özlərinə pay götürmək idi. Nə baş verdi: ermənilər ayaq altında qaldı. Ermənilər bu tarixi unutmamalıdır. Onların indiki hərəkətləri də ona doğru gedir.

***- Ağdamın dağıdılmasına, yandırılmasına görə böyük cinayət məsuliyyəti daşıyan Ermənistanın beynəlxalq məhkəmələrə çıxarılması üçün hansı addımlar atılmalıdır?***

- Azərbaycan tərəfi Ağdamın, eləcə də digər işğaladan azad olunmuş ərazilərdə 30 il müddətində törədilən bütün erməni vəhşilikləri, dağıntıları, talanları, tarixi, dini abidələrimizin dağılması ilə bağlı kifayət qədər lazimi materillar toplayıb və bu, beynəlxalq qurumlara təqdim olunub. Azərbaycan erməni cinayətlərini sübut edən sənədləri, faktları beynəlxalq məhkəmələrə, BMT, ATƏT, YUNESKO kimi böyük təşkilatlara tədim edib. Amma bu təşkilatlar Ermənistana qarşı heç bir cəza tətbiq etmək fikrində görünmür. Bu təşkilatlar 30 illik işğal dövründə necə lal idilərsə, indi də laldırlar. Azərbaycanın dəfələrlə təkid eləməsinə baxmayaraq YUNESKO Ağdama, digər ərazilərə bir dənə missiya göndərmədi. Amma indi təkid edir ki, gəlib guya xiristian abidələrinin dağılmasını araşdırsın. Biz həmin təşkilatlara üz tuturuq. Sən ilk növbədə gəl Ağdama, digər işğalda qalan ərzilərimizdə baş verən erməni vandallığına, orada dağıdılmış məscidlərimizə, tarixi abidələrimizə bax, ondan sonra keç Ermənistana. Amma, bunlar sırf ermənilərin müdafiəsi üçün gəlir. Bu yenə də qərəzli münasibət, ikilistandartlardır.

*“Müharibədə əldə edilən zəfərdən sonra Ağdam, Kəlbəcər və Laçın rayonları döyüşsüz, bir güllə atılmadan işğalçılardan təmizləndi*

***- Bu gün Ağdamda aparılan quruculuq işlərini, rayonun iqtisadi mərkəzə cevrilməsi istiqamətində görülən işləri necə dəyərləndirmək olar?***

- Ağdam işğaldan azad olunandan sonra orada bərpa işləri gedir, qayıdış üçün hazırlıq görülür. Ağdam şəhərində, eyni zamanda şəhər ətrafında 3 kəndin bərpa, tikinti işləri aparılır.

Ağdamda çox geniş sahəyə malik olan sənaye parkı yaradılır. Yəni, Ağdam əhalisi öz dogma yurd-yuvasına dönəndə artıq onların iş yeri hazır olacaq. Ağdam hərtərəfli bərpa edilir, geniş istehsal sahələri yaradılır. İnsanlarımız üçün evlər, mənzillər tikilir. Təhsil, Səhiyyə sahəsində də uğurlu işlər aparılır. Eyni zamanda, Ağdam həmişə Azərbaycanın çox güclü iqtisadiyyata malik olan bölgələrindən biri olub və bu gün də həm kənd təsərrüfatı, həm də istehsal sahələri üzrə bərpa prosesini keçməkdədir.

***- Ağdamda məskunlaşma nə zaman gerçəkləşə bilər?***

- Ağdamın baş planı təsdiq olunub. Artıq Ağdam rayonunda 3 kəndin tikintisi aparılır. Burada dövlət başçısının başçılığı ilə müəyyən təmərküzləşmələr nəzərdə tutulacaq. Ancaq nə tikilərsə, nə istifadəyə veriləcəksə hamısı ən yüksək səviyədə olacaq. Biz bu nümunəni Ağalının timsalında gördük. Eyni zamanda cənab Prezident qeyd edib ki, 2026-cı ilə qədər 140 min nəfər öz dogma yurdlarına qaytarılacaq. Bu proses artıq davam edir. Gözləyirik ki, 2024-cü ildə Xocalıya, Şuşamıza ilkin köçmələr olacaq. Beləliklə də bu proses sürətlənəcək.

✍ ***Tahirə Qafarlı***

# Dövlət hesabına xaricdə təhsil alanlar geri qayıtmalıdırmı?

***Son illər Azərbaycanda gənclər arasında xaricdə təhsilə yüksək maraq var. Hazırda həmin gənclərin müəyyən hissəsi dövlət vəsaiti hesabına xaricdə təhsillərini davam etdirirlər. Məsələn, 2022/2023-cü tədris ilinin statistikasına görə, xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 1004 nəfər təşkil edib. Onların 35 faizi Bakı, 65 faizi isə Azərbaycanın regionlarında yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Türkiyə, Macarıstan, Rusiya və Çinin ali təhsil müəssisələrində oxuyur. Bu məsələdə də müəyyən narazılıqlar var.***



## Cəmiyyət

Belə ki, xaricdə dövlət hesabına təhsil alan və bu il sonuncu kursda oxuyan tələbələrin dediyinə görə, onlara təhsillərini başa vurduqdan sonra mütləq qayıdıb Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olmaları bildirilib. Bu da müəyyən narazılıq yaradıb. Tələbələr iddia edir ki, xaricdə dövlət hesabına təhsil proqramına qəbul olarkən onlara deyilib ki, Azərbaycana qayıdıb işləmək və ya xaricdə qalmaq seçimində sərbəstdirlər. İddialara görə, bir vaxtlar ölkə Prezidenti də tələbələrlə görüşdə deyib ki, bu məsələdə məcburiyyət olmamalıdır.

Digər tərəfdən, tələbələr həm də təhsil haqlarının ödənilməsi ilə bağlı problem yaşayırlar. Aidiyyəti qurumlar tərəfindən təhsil haqlarının gec ödənildiyi bildirilir. Universitetlər də tələbələrdən ödənişin vaxtında ödənilməsini tələb edirlər, əks təqdirdə ali təhsil müəssisəsindən xaric ediləcəkləri bildirilir. Tələbələr iddia edirlər ki, bu halda valideynlər məcbur qalaraq təhsil haqqının bir hissəsini universitetlər tələb etdikləri vaxtda ödəyirlər. Azərbaycan dövləti sonradan həmin vəsati geri ödəsə də, bu məsələdə problem yaşanmaması üçün aidiyyəti qurumlar daha operativ çalışmalıdırlar. Bəs, görəsən, təhsilhaqqı ilə bağlı yaranan yubanmanın səbəbi nədir? Xaricdə dövlət vəsaiti hesabına bu il sonuncu kursda oxuyan tələbələrin Azərbaycana qayıdıb işləməsi məcburidirmi?

### Birinci proqramda gənclərin əksəriyyəti ölkəyə qayıtmadı

**■ Mövzu ilə bağlı təhsil eksperti Elşən Qafarov bizimlə söhbətində bildirib ki, bundan əvvəlki Dövlət Proqramında daha çox bakalavr səviyyəsində təhsilə üstünlük verilmişdi.** Amma həmin gənclərin əksəriyyəti sonradan ölkəyə qayıtmadı: "Əslində beynəlxalq praktikada da belədir ki, dövlət hesabına xaricə təhsilə göndərilənlər müəyyən müddətə ölkədə çalışmalıdır. Dövlət ona sərmayə qoyur, kadr hazırlayır. Burada işləməlidir ki, qoyulmuş sərmayənin nəticəsi olsun. Təbii ki, sonrakı illərdə həmin tələbələrin xaricdə diasporanın inkişaf etdirilməsi və sair məsələlərlə bağlı təkliflər ortaya çıxdı. Xatırlayıram ki, bir vaxtlar cənab Prezident də bununla bağlı bildirmişdi ki, biz hətta o şəraiti yaradırıq ki, bu gənclər gedib xaricdə çalışsınlar, amma Azərbaycan disporasının inkişafında yaxından iştirak etsinlər. İkinci Dövlət Proqramında isə, yəni Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nda bununla bağlı öhdəlik var. Yəni, məzunlar qayıdıb azı 5 il Azərbaycanda işləməlidirlər. Düşünürəm ki, qoyulmuş tələb haqlıdır. Qoyulmuş investisiya da o məqsəd daşıyır ki, onlar gəlib burda öz töhfələrini versinlər".

### Bu tələbələr mütləq aidiyyəti qurumlara müraciət etməlidirlər

**Təhsil haqlarının ödənilməsi ilə bağlı gecikmələrin nədən qaynaqlanmasına gəlincə, ekspert vurğulayır ki, bu cür problem yaşayan tələbələr mütləq aidiyyəti qurumlara müraciət etməlidirlər:** "Əgər belə bir problem varsa, aidiyyəti üzrə müraciət edilməlidir. Valideynlərin ödəniş etməsi doğru hal deyil. Valideynlər birmənalı başa düşməlidir ki, tələbələr, magistrlər hansı xarici ali məktəbə göndərilirsə, dövlət səviyyəsində həmin universitetlərlə müqavilələr bağlanılır. Ona görə də dövlətin müvafiq orqanlarına müraciət edilməlidir".

### Onlar, ən azı, beş il Azərbaycanda işləməlidirlər

**■ Mövzu ilə bağlı Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov qeyd edib ki, ümumiyyətlə, xaricdə təhsili əhatə edən proqramın ideya müəllifi, təşəbbüskarı ölkə Prezidentidir:** "Burada məqsəd də Azərbaycanın kadr potensialının yüksəldilməsi, yüksək təhsil almış gənclərin hesabına ölkəmizin daha davamlı iqtisadi inkişafına nail olmaqdır. Xatırlayıram ki, Azərbaycan gənclərinin xaricdə təhsil alması ilə bağlı cənab Prezident 2007-ci ildə birinci Dövlət Proqramını qəbul etdi. Birinci Dövlət Proqramı işləyən işçi qrupunun üzvlərindən biri də mən olmuşam. Birinci Dövlət Proqramı qəbul edildi və kifayət qədər də uğurlu oldu. Əslində açığını deyim ki, birinci Dövlət Proqramında da gənclərin məhz qayıdıb Azərbaycanda işləməklə bağlı bir öhdəliyi var idi. Onlar gəlib ən azı beş il Azərbaycanda işləməli idilər. O zaman bu gənclərin xeyli hissəsi qayıtdı, amma bir qismi qayıtmadı və cənab Prezident böyük humanistlik nümayiş etdirdi, əslində mən düşünürəm ki, həm də doğru etdi. O baxımdan ki, bu gün Azərbaycan gənclərinin həmin xarici dövlət proqramı ilə təhsil almış gənclərin səsi dünyanın nüfuzlu, deməli, təhsil ocaqlarından, elmi müəssisələrdən, beynəlxalq qurumlardan, böyük korporasiyalardan gəlir. Əlbəttə, onlar Azərbaycanın, həm də orada intellektual, deməli, təəssübkeşləridirlər. Onlar Azərbaycanın, həm də bütövlükdə diaspor fəaliyyətimizin gələcəkdə formalaşması istiqamətində böyük işlər görürlər. Baxmayaraq ki, onlar xaricdədirlər, yəni bütövlükdə yenə də Azərbaycana xidmət edirlər. Çünki xaricdə Dövlət Proqramının mahiyyətində bu dayanır. Azərbaycan xalqı ümumilikdə intellektual xalqdır, savadlı xalqdır. Əgər vaxtilə dövlət belə gənclərə dəstək olmasaydı, bizim xeyli sayda savadlı gənclərimiz müxtəlif yollara gedib xaricdə təhsil alacaqdılar. Bunun üçün dünyada hətta Soros kimi xüsusi məqsədli fondlar var və onların təsirinə düşəcəkdilər. Amma buna dövlət imkan verrmədi və bu gənclərin gələcəkdə savadlı, peşəkar mütəxəssis kimi yetişməsinə dövlət öz çiynini verdi. Dövlət öz gəncinə sahib çıxdı".

> *"Birinci Dövlət Proqramında da gənclərin məhz qayıdıb Azərbaycanda işləməklə bağlı bir öhdəliyi var idi*

> *Valideynlər birmənalı başa düşməlidir ki, tələbələr, magistrlər hansı xarici ali məktəbə göndərilirsə, dövlət səviyyəsində həmin universitetlərlə müqavilələr bağlanılır*

Alim vurğulayıb ki, xaricdə dövlət hesabına təhsil alan hər bir gənc Azərbaycan üçün çalışmalıdır: "Həmin gənclər Dövlət Neft Fondunun vəsaitləri hesabına xaricdə təhsil alırlar. Dövlət Neft Fondunun pulu xalqın puludur, bu, dövlətin puludur və xalq, dövlət öz gəncinin oxumasına pul ayırır, onun oxumasını maliyyələşdirir və burdan o gənclər üçün bir öhdəlik əslində onların üzərinə həm də dövlətin bir öhdəliyi qoyulur. Dövlətin onlardan gözləntiləri var. Gözlənti nədir? Onlar gəlib Azərbaycana xidmət eləsinlər, bu ölkənin inkişafı naminə çalışsınlar, bilik və bacarıqlarını bu dövlətin, bu xalqın inkişafı yoluna sərf etsinlər. Həmin pullar verilmir ki, kimsə gedib xaricdə təhsil alsın, sonra da ölkəni bəyənməsin. Ən nüfuzlu ali məktəbdə tutaq ki, illik təhsilhaqqı 100 000 dollardır. Onu bu xalq öz cibindən verir ki, savadlı gənci xaricdə bilik və bacarığını artırıb ölkəsinin inkişafına dəstək olsun. Biz də bilirik ki, belə hallar var, amma həmin gənclər ölkə qarşısındakı öhdəliklərini unutmamalıdırlar. Dövlət Proqramında da qeyd olunub ki, həmin gənclər 5 il müddətində gəlib bu ölkəyə çalışmalıdırlar, əks halda vəsaiti geri qaytarmalıdır. Əslində, ölkəmizdə həmin gənclər üçün çox gözəl perspektivlər var, onlar ən perspektivli işlərdə irəli çəkilirlər. Ona görə də hesab edirəm ki, o gənclərin borcudur, gəlib bu ölkədə çalışsınlar, xidmət etsinlər".

Təhsilhaqqı ilə bağlı yaranan yubanmalara da aydınlıq gətirən İ.Orucov deyib ki, bu ancaq texniki məsələlərdən qaynaqlana bilər: "Həmin vəsaitlər təbii ki, büdcədən ayrılır. Büdcə pullarının ayrılması ilə bağlı da müəyyən prosedurlar var. Burada hər hansı bir bürokratik və digər əngəldən söhbət gedə bilməz. Çünki bu Proqram qeyd etdiyim kimi cənab Prezidentin diqqətindədir. Onun xüsusi diqqət göstərdiyi məsələlərdən biridir.

Bütövlükdə proqram çərçivəsində öhdəliklər müəyyənləşdirilib və zaman çərçivəsində öhdəliklər yerinə yetirilir. Elm və Təhsil Nazirliyi yanında İctimai Şura olaraq da bizə indiyədək təhsil haqlarının yubanması ilə bağlı hansısa müraciət daxil olmayıb".

✍ *Sevinc*

---

## Müzakirə

***Azərbaycanda müharibə veteranlarına verilən təqaüdün məbləği artırıla bilər. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Himalay Məmişov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bu kimi məsələlərin müntəzəm şəkildə Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyində müzakirə olunduğunu deyib: "Son 4 ildə Azərbaycanda aparılan islahatlar çərçivəsində minimum əməkhaqqının, minimum pensiyanın, müxtəlif sosial ödənişlərin, müavinətlərin və təqaüdlərin məbləğləri demək olar hər il artırılıb.***

# Müharibə veteranlarına şad xəbər

Hər büdcə ilinin imkanları çərçivəsində bu məsələlərə baxılır. İstisna deyil ki, növbəti il üçün də bu məsələlərə baxılacaq. O cümlədən, müharibə veteranlarına təqaüdün məbləğinin artırılması məsələləri müzakirə olunacaq. Müharibə veteranlarına verilən təqaüdün məbləğinin kommunal, nəqliyyat xərcləri ilə əlaqələndirilməsi məsələsini məqsədəuyğun hesab etmirik, çünki 2019-cu ildə kommunal və nəqliyyat xərclərinə görə müavinət ləğv olunub, onun əvəzinə müharibə veteranlarına verilən təqaüd təsis olunub və məbləği 80 manatdır. Dövlət Statistika Komitəsinin 2022-ci il üzrə statistik məlumatlarına əsasən, istehlak xərclərinin tərkibində su, işıq, qaz və digər yanacaq növlərinə görə xərclər təxminən 27 manat 17 qəpik, nəqliyyat xərclərinə görə 21 manat 85 qəpik və rabitə xərclərinə görə 11 manat 20 qəpik, ümumilikdə isə bir nəfər üçün 60 manat 22 qəpik məbləğində müəyyən edilib. Hazırkı təqaüdün məbləği qeyd edilən xərci 33 faiz üstələyir".



Bəs, görəsən, gələn ilin büdcəsində müharibə veteranlarına verilən təqaüdün məbləğinin artırılması nə dərəcədə realdır? Əgər artım baş verərsə, bu təxminən neçə faiz civarında olacaq?

**■ Mövzunu qəzetimizə şərh edən İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin sədri Ruslan Atakişiyev deyib ki, Azərbaycanın dövlət büdcəsi həmişə sosialyönümlü olub: "Növbəti ilin büdcə müzakirələri onu deməyə əsas verir ki, gələn ilin büdcə sənədi də sosialyönümlü olacaq.** Artıq büdcə müzakirələrinin getdiyi bir vaxtda biz gördük ki, ölkə Prezidenti tərəfindən hərbi qulluqçuların, bir sıra sahələr üzrə hərbi birləşmələrin əməkdaşlarının məvacibinin artırılmasına dair fərmanları oldu.

Güman edirik, bu proses 2024-cü ildə də davam edəcək. Təbii ki, son illərin inflyasiyalarına baxsaq görərik ki, müharibə veteranları üçün nəzərdə tutulan təqaüdlərin artırılmasına ehtiyac var.

> *Müharibə veteranları üçün nəzərdə tutulan təqaüdlərin artırılmasına ehtiyac var*

Bu artımın 10-15 faiz civarında baş verəcəyini gözləyirik. Sözsüz ki, artım bundan da çox ola bilər. Bunun üçün dövlət büdcəsinin də yetərincə imkanları mövcuddur".

✍ *Sevinc*

---



**■ Canni De Byazi Azərbaycan yığmasını tərk edib. Bunu AFFA-nın baş katibi Sərxan Hacıyev açıqlayıb.**

O bildirib ki, Canni De Byazi özü Azərbaycan yığmasını tərk etmək istədiyini açıqlayıb: "Dedi ki, mən artıq Azərbaycan yığmasında çalışmaq istəmirəm. Onunla müqavilə uzadılmayacaq. İcraiyyə Komitəsi də müzakirələr apardı. Belə qənaətə gəldik ki, nəticələrə görə De Byazi yığmada qalmasın. İclasda Canni De Byazinin jurnalistlər haqqında dediyi sözlər İcraiyyə Komitəsinin iclasında müzakirə olundu. Onun bu açıqlaması birmənalı şəkildə pislənildi". Xatırladaq ki, Canni De Byazi 2020-ci ildən Azərbaycan yığmasının baş məşqçisi idi.



**■ Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydasında dəyişiklik edilib.**

Nazirlər Kabineti bununla bağlı qərar qəbul edib. Qərara əsasən, əmək pensiyasının qanunda müəyyən olunmuş minimum məbləğə çatdırılması, indeksləşdirilməsi və maddi yardımın (əvvəlki ildə ödənilmişdirsə) əmək pensiyasının tərkibinə daxil edilməsi ilə bağlı hesablamaların eyni vaxtda aparılması zərurəti yaranarsa, həmin hesablamalar aşağıdakı ardıcıllıqla yerinə yetirilir: əmək pensiyası minimum məbləğə çatdırılır; maddi yardımın (əvvəlki ildə ödənilmişdirsə) bir aya düşən hissəsi əmək pensiyasının tərkibinə daxil edilir; əmək pensiyası indeksləşdirilir.



**■ Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin idarə rəisi Akif Çovdarov Bakı Apellyasiya Məhkəməsinin sonuncu qərarından kassasiya şikayəti verib.**

Kassasiya şikayəti Ali Məhkəmədə hakim Tahir Kazımovun icraatına verilib. Qeyd edək ki, Bakı Apellyasiya Məhkəməsinin sonuncu qərarına əsasən, Akif Çovdarovun şikayəti rədd edilib və onun müsadirədən azad olunmuş əmlakları yenidən dövlət hesabına alınıb. Qeyd edək ki, Akif Çovdarov 2015-ci ildə saxlanılıb. Bakı Hərbi Məhkəməsinin hökmü ilə 12 il müddətinə azadlıqdan məhrum edilib və 30 milyon manatlıq əmlakı müsadirə edilib. 2020-ci ildə imzalanmış əfv sərəncamı ilə Akif Çovdarov azadlığa buraxılıb.



**■ Son bir ay ərzində ölkənin meşə fondu torpaqlarında 430 mindən artıq ağac əkilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən xəbərə görə, payız ağac əkini mövsümü başlayandan Regional Meşə Təsərrüfatı Mərkəzlərinin əməkdaşları tərəfindən ölkənin bütün regionlarının meşə fondu torpaqlarında meşəbərpa tədbirləri aparılır, hər bölgənin iqlim şəraitinə uyğun müxtəlif növ ağaclar əkilir, toxumlar səpilir. Payız əkin planına uyğun olaraq ölkə ərazisinin meşə fondu torpaqlarında bugünədək ümumilikdə 433 min göyrüş, ağcaqayın, fıstıq, akasiya, qovaq, vələs və digər müxtəlif cinsli ağac tingləri əkilib, 12 tondan artıq toxum səpilib. Qeyd edək ki, əkində istifadə olunan ağac tingləri Meşə Təsərrüfatı Mərkəzlərinin tinglik sahələrində yetişdirilib.



**■ 2023-cü ilin 10 ayında mülkiyyət hüququ qeydiyyata alınan daşınmaz əmlakların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 38,1% çoxdur.**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin xəbərinə görə, qurum tərəfindən həyata keçirilən daşınmaz əmlakın dövlət qeydiyyatı sahəsində müsbət dinamika müşahidə olunur. Belə ki, 2023-cü ilin yanvar-oktyabr ayları ərzində 406.180 daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatı aparılıb. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 38,1% çoxdur. 2023-cü ilin 10 ayı üzrə göstəricinin 63.516-sı (16%) ilkin, 342.664-ü (84%) isə təkrar qeydiyyatın payına düşür.



**■ Rusiyada "Anqarsk manyakı" kimi tanınan Mixail Popkova daha 10 il həbs cəzası verilib. Bu barədə Rusiya İstintaq Komitəsi məlumat yayıb. Məhkəmə 80-dən çox adamı qətlə yetirmiş və cinayətlərinin əksəriyyətini Anqarsk şəhərində törətmiş Mixail Popkovu 90-cı illərdə törədilmiş daha 3 qətldə təqsirli bilib.**

Xatırladaq ki, 2015-ci ildə məhkəmə tərəfindən Popkovun 22 qətl törətməsi və iki sui-qəsd həyata keçirməsi sübuta yetirilib və ona ömürlük həbs cəzası verilib. Məhkəmə prosesi zamanı Popkov digər qətllər törətməsini də etiraf edib və ona qarşı yeni cinayət işi başlanıb. İstintaq araşdırması zamanı məlum olub ki, Mixail Popkov 20 il ərzində İrkutsk vilayətində azı 84 qətl törədib.

# Azərbaycan üçün mühüm layihə

***Bu** ilin mart ayında Bakıda Orta Dəhliz ölkələrinin imzaladığı protokola uyğun olaraq "Çərçivə sazişi" hazırlanıb və aidiyyəti ölkələrə imzalanması üçün göndəriləcək. Bunu Dövlət Gömrük Komitəsinin (DGK) sədr müavini Natiq Şirinov "Beynəlxalq nəqliyyat-logistika dəhlizi: Zəngilandan inkişaf impulsları" mövzusunda beynəlxalq konfransda bildirib. Onun sözlərinə görə, Azərbaycanın gömrük orqanlarının qarşısında duran mühüm vəzifələrdən biri ölkənin tranzit potensialını artırmaqla onu regionun tranzit qovşağına çevirməkdir:*




## Aktual

"Əsas beynəlxalq konvensiyaların üzvü olan Azərbaycan bu istiqamətdə "Tranzit Konvensiyası", "Mallar və Ticarətdə sənədləşmənin sadələşdirilməsi konvensiyası" kimi önəmli sazişlərə qoşulmaq prosesini sürətləndirib. Tranzit potensialının artırılması üçün atılan ən mühüm addımlardan biri Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında sazişin imzalanması olub. Dəhliz üzərindən təchizat zəncirinin artırılmasını asanlaşdıran gömrük prosedurlarının tətbiqi qaçaqmalçılığın, narkotik vasitələrinin tranzit daşımasının qarşısının alınmasına dair tədbirləri zəruri edir və bu məqsədlə dəhliz ölkələrinin gömrük xidmətlərinin beynəlxalq əməkdaşlığı böyük əhəmiyyət kəsb edir. Bu baxımdan gömrük orqanlarının dəhliz boyu ticarətin genişləndirilməsinə ən böyük töhfəsi tranzit daşımalarına aid məlumatların öncədən mübadiləsini təmin edilməsi və elektron gömrük qeydiyyat portalının yaradılması olacaq".

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur.

Rusiya-Ukrayna müharibəsi və Qərbin Moskvaya qarşı sanksiyaları Rusiyanın tranzit ölkə kimi, xüsusən də Avropa İttifaqı ilə Çin arasında quru əsaslı ticarət əlaqələrində effektivliyini məhdudlaşdırıb. Bu kontekstdə Orta Dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) dəmir yolu ticarəti üçün potensial alternativ marşrut kimi Çin, Aİ və daha geniş regionda şirkətlər və hökumətlərin diqqətini çəkməyi bacarıb.

Müharibə başlayandan Orta dəhlizin yükdaşıma və nəqliyyat-logistika həcmində ciddi artım baş verib. Belə ki, 2022-ci ildə Orta Dəhlizlə (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Xəzər dənizi üzərindən 1,5 milyon ton yük daşınıb. Təkcə Azərbaycan seqmenti üzrə bu ilin 6 ayı ərzində Orta Dəhlizdə yükdaşımaların həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,8 dəfə və yaxud 77,2 faiz artaraq 1 milyon 325 min ton təşkil edib.

Bu il martın 15-də isə Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi üzrə çoxtərəfli görüş keçirilib. Orta Dəhliz boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə rəqəmsal həllər əsasında tranzit gömrük prosedurlarının sadələşdirilməsi, yük və nəqliyyat vasitələrinin sərhədkeçmə proseslərinin sürətləndirilməsi mexanizmlərinin hazırlanaraq reallaşdırılması məqsədilə keçirilən görüşdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğız, Özbəkistan, Türkmənistan, Tacikistan və Gürcüstan gömrük xidmətlərinin rəhbərləri və təmsilçiləri, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Baş katibi Kunio Mikuriya, Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Mirvoxid Azimov, BMT-nin Avropa üçün İqtisadi Komissiyasının, Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Sonda iştirakçı ölkələrin gömrük xidmətlərinin rəhbərləri "Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə sadələşdirilmiş tranzit qaydasının işlənib hazırlanması və tətbiqi üzrə Fəaliyyət Planı" qəbul edib və iclasın yekun Protokolu imzalanıb.

> “
>
> *Orta Dəhliz quru və su yollarından keçdiyi üçün və mürəkkəb yükdaşıma yolu olduğuna görə burada iştirak edən bütün ölkələrin infrastrukturunun bu tələblərə cavab verməsi mütləqdir*
>
> *Bu istiqamətdə "Çərçivə sazişi"nin imzalanması Azərbaycanın tranzit ölkə olaraq mövqeyini möhkəmləndirir*

Bəs, görəsən, Orta Dəhliz ölkələri arasında "Çərçivə sazişi"nin imzalanmasının hansı əhəmiyyəti var? Bu sənəd Azərbaycana hansı dvidentləri qazandıracaq?

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı ekspert Xalid Kərimli deyib ki, bu sənəd ümumi istiqamətləri müəyyənləşdirir:** "Çərçivə sazişi"nin tərkibində sonrakı razılaşmaların olmasına ehtiyac var. Yəni, bu başlanğıc bir sənəd olacaq. Bunun çərçivəsində də konkret razılaşmalar olmalıdır. Təbii ki, Orta Dəhlizin Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Bu Dəhlizin tam işlək vəziyyətə düşməsi üçün iştirakçılar arasında sadələşdirilmiş tranzit, sadələşdirilmiş gömrük prosedurları olmalıdır. Eyni zamanda, Orta Dəhliz quru və su yollarından keçdiyi üçün və mürəkkəb yükdaşıma yolu olduğuna görə burada iştirak edən bütün ölkələrin infrastrukturunun bu tələblərə cavab verməsi mütləqdir. Bu ölkələrin quru sərhədlərini keçən zaman hər birindən ayrıca şərtlər tələb olunduğuna görə, tranzit şərtlərin güzəşti ilə bağlı razılıq lazımdır. Orta Dəhlizin tam işə düşməsi üçün bu ölkələrdən keçən dəmiryolu, dəniz limanlarının hər birinin yükgötürmə tutumu olmalıdır ki, yükləri ötürə bilsin. Bundan başqa, Orta Dəhlizdə iştirak edən ölkələrə razılaşdırılmış, güzəştli vahid idarəetmə sistemi olan tranzit imkanlarının təklif edilməsi lazımdır. Məsələn, yük hər hansı ölkəyə daxil olduqda ayrı şərtlər tələb edilməsin və hər bir ölkə əlavə şərt qoyaraq Orta Dəhlizin effektivliyini aşağı salmasın. Yəni, Orta Dəhlizin effektiv fəaliyyət göstərməsi üçün dövlətlərin öz nəqliyyat infrastrukturunu inkişaf etdirməsi, yükgötürmə qabiliyyətlərinin artırılması lazımdır. Həmçinin idarəetmə sisteminin və tələb olunan şərtlərin güzəştli şəkildə müəyyənləşdirilib, eyniləşdirilməsi vacibdir".

■ **Məsələ ilə bağlı iqtisadçı ekspert Ruslan Atakişiyev də bildirib ki, hazırda qlobal dünyada dəhlizlər uğrunda mübarizə gedir:** "Bu gün dünyada müxtəlif ölkələrdən keçən dəhlizlər mövcuddur. Orta Dəhlizin marşrutu da Azərbaycan üzərindən keçir. Təbii ki, bu istiqamətdə "Çərçivə sazişi"nin imzalanması Azərbaycanın tranzit ölkə olaraq mövqeyini möhkəmləndirir. Orta Dəhliz təkcə Şərqlə Qərbi birləşdirən nəqliyyat körpüsü rolunu oynamır, eyni zamanda böyük bir bazarın birləşdirilməsində xüsusi əhəmiyyətə malik olur. Yəni, qarşılıqlı əlaqələrin, ticarətin və investisiyaların artmasından söhbət gedir ki, bu da kifayət qədər ciddi əhəmiyyətə malikdir. Bu istiqamətdə müvafiq sazişin imzalanması Azərbaycan üzərindən də yükdaşımaların ciddi şəkildə artmasına səbəb ola bilər. Nəticədə tranzit ölkə olaraq Azərbaycanın gəlirləri bu sahə üzrə əhəmiyyətli dərəcədə arta bilər".

✍ **Sevinc**



Fərman

# Su təsərrüfatının idarəsində yenilik

**Məlum olduğu kimi, bu yaxınlarda Prezident İlham Əliyev tərəfindən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Fərman imzalanıb. Sənədə əsasən, qurumun tabeliyində 5 publik hüquqi şəxs yaradılıb.**

***Həmin hüquqi şəxslər bunlardır:***

*- "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin çevrilmə formasında yenidən təşkili yolu ilə Regional Su Meliorasiya Xidməti - Bu qurum meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını həyata keçirən, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərləri istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir;*

*- "Azərsu" ASC-nin çevrilmə formasında yenidən təşkili yolu ilə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti - Bu qurum Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir;*

*- "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı"nın Meliorasiya Elmi Tədqiqat İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu - Bu qurum su və meliorasiya sahəsində fundamental və tətbiqi tədqiqatlar həyata keçirən publik hüquqi şəxsdir;*

*- "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı"nın Tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti - Bu qurum tikinti işlərinin təsdiq edilmiş layihə-smeta sənədlərinə uyğun həyata keçirilməsini və əsaslı vəsait qoyuluşu üzrə dövlət büdcəsindən və digər mənbələrdən ayrılmış vəsaitin idarə edilməsinin səmərəliliyini təmin edən, habelə su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin inşası, yenidən qurulması, bərpası ilə bağlı satınalmaları təşkil edən publik hüquqi şəxsdir;*

*- "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı"nın su təsərrüfatı obyektlərinin layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu "Azdövsutəslayihə"nin və tabeliyindəki "Azərsu"-yun "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu - Bu qurum su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı, tullantı sularının emalı və axıdılması sistemlərinin layihələndirilməsini həyata keçirən publik hüquqi şəxsdir.*

*Publik hüquqi şəxslər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanuna uyğun olaraq dövlət qeydiyyatına alındığı günədək "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" və "Azərsu" öz fəaliyyətini davam etdirir və onların strukturu, işçilərinin say həddi, əməkhaqları (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) və əməyin ödənilməsi sistemi saxlanılır;*

*Publik hüquqi şəxslərin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsinin vəsaiti, habelə onların fəaliyyətindən əldə edilən gəlir və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;*

*Publik hüquqi şəxslərin saxlanma xərcləri və fəaliyyəti onların fəaliyyətindən əldə edilən gəlir və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;*

Publik hüquqi şəxslərin nizamnamə fondu onların çevrilmə yolu ilə yenidən təşkil olunduqları qurumların əmlakı (bu Fərmanın 8.1.6.1-ci və 8.1.6.2-ci yarımbəndləri nəzərə alınmaqla) hesabına formalaşır. Maraqlıdır, görəsən, bu Fərman hansı dəyişikliklərə gətirib çıxaracaq?

■ **Məsələ ilə bağlı iqtisadçı-ekspert Xalid Kərimli bizimlə söhbətində bildirib ki, bu Fərman su təsərrüfatında idarəçiliyin daha effektiv şəkildə təşkil olunmasına xidmət edir:** "Xatırlayırsınızsa, bu ilin əvvəlində ölkə başçısının müvafiq Fərmanı ilə Azərbaycanda su təsərrüfatı ilə məşğul olan qurumlar birləşdirildi. Yeni Fərman da bu istiqamətdə aparılan islahatları daha effektiv hala gətirəcək".

> “
>
> *Suya qənaət edilməsi üçün həm istifadəçilərin, həm də dövlətin üzərinə böyük məsuliyyət düşür*

Ekspertin fikrincə, suya qənaət edilməsi üçün həm istifadəçilərin, həm də dövlətin üzərinə böyük məsuliyyət düşür: "Bildiyiniz kimi regionda Azərbaycanın su baxımından bəxti gətirməyib. Cənubi Qafqazın ümumi su ehtiyatının 62 faizi Gürcüstanın, 28 faizi Ermənistanın, yalnız 10 faizi Azərbaycanın payına düşür. Üstəlik su ehtiyatlarımızın 70 faizdən çoxu xarici mənbələrdən formalaşır. Bu isə onu göstərir ki, biz su ehtiyatlarımıza görə qonşularımızdan asılıyıq. Digər bir məsələni də nəzərə almaq lazımdır ki, ümumi iqlim məsələləri, quraqlıq problemlərinin artması ölkəmizin su ehtiyatlarının da azalması ilə müşayiət olunur. Həmçinin Azərbaycanda əkinçiliyin inkişafı suya olan tələbatı da artırır. Hesab edirəm ki, suyun qənaətlə istifadəsi çox vacibdir. Hesablamalara görə, dünyanın inkişaf etmiş ölkələrində istifadə edilən suyun 70 faizi kənd təsərrüfatı sektorunun payına düşür. Amma inkişaf etməkdə olan ölkələrdə isə bu göstərici 90 faizə çatır. Təbii ki, bizim hazırda ərazimizi böyüdüb yeni su mənbələri tapmaq, iqlimi dəyişmək kimi imkanlarımız yoxdur. Yeganə vasitə mövcud su ehtiyatlarından qənaətli istifadədir. Burada həm su istifadəçilərinin, həm də hökumətin üzərinə müəyyən iş düşür. Bu kontekstdə infrastrukturun qurulması həyata keçirilməlidir. Mövcud suvarma kanallarının əksəriyyəti beton deyil, torpaq məcralı kanallardır. Bu isə mənbədən çıxan suyun bəzən 3-də ikisinin məqsədə gedib çatmamasına səbəb olur. Nəticədə isə həm su itkisi yaranır, həm də əlavə su itkisinə məruz qalan torpaqlarda şoranlaşma yaranır. Bir sözlə, bütün bu problemlərin olmaması üçün səmərəliliyin qorunması çox vacibdir".

✍ **Sevinc**

# Müəllimlərin sertifikasiyasını Dövlət Agentliyi həyata keçirəcək



**Bağça və ümumtəhsil məktəblərinə inzibati və pedaqoji heyətin – direktorların və müəllimlərin qəbulu və yerdəyişməsi, o cümlədən müəllimlərin sertifikasiyasını Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi həyata keçirəcək.**

Bu barədə AZƏRTAC-a eksklüziv müsahibəsində agentliyin direktoru Eşqi Bağırov məlumat verib. O bildirib ki, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi müvafiq sahələrdə Elm və Təhsil Nazirliyinin əsas icra strukturu kimi fəaliyyət göstərəcək: "Nazirliyin bir sıra icra funksiyaları əks-mərkəzləşdirmə prinsipinə uyğun olaraq, bəlli qaydada, agentliyə ötürüləcək.

Məsələn, məktəbəqədər təhsil müəssisələri, ümumtəhsil müəssisələri, uşaq gənclər inkişaf mərkəzləri, internat tipli müəssisələrin əlaqələndirilməsi, idarə olunması və təhsilin dövlət standartlarına uyğun təşkilinə nəzarəti agentlik olaraq biz həyata keçirəcəyik. Vətəndaş müraciətlərinin araşdırılması və baxılması da agentliyin işidir. Həmçinin uşaqların və şagirdlərin təhsil müəssisələrinə qəbulu və yerdəyişməsi, təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarəti bizim vəzifəmizdir. Bağça və ümumtəhsil məktəblərinə inzibati və pedaqoji heyətin – direktorların və müəllimlərin qəbulu və yerdəyişməsi, o cümlədən müəllimlərin sertifikasiyası da bundan sonra agentliyin fəaliyyət dairəsinə daxildir".

# Qrip nə üçün gec sağalır?

**Qrip "influenza" virusunun təsiri ilə ortaya çıxdığı halda, soyuqdəymə olduğumuz mühitdə soyuqisti balansının pozulması ilə yaranır.**



Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-terapevt Zakir Quliyev məlumat verib. O qeyd edib ki, qripin gec sağalması çox vaxt düzgün olmayan dərman qəbulu zamanı ortaya çıxır və uyğun olmayan dərman qəbulu orqanizmin sağalmasını gecikdirir.

Həkim-terapevt eyni zamanda bildirib ki, antiobiotiklərdən əsasən bakterial mənşəli infeksion xəstəliklərdə istifadə edirik.

"Bu xəstəliklərlə yanaşı, bəzi virus xəstəlikləri də özünü oxşar simptomatika ilə büruzə verə bilir. Belə olan halda sadəcə simptomlara əsaslanaraq eyni antibiotikdən istifadə olunması yolverilməzdir, çünki virus mənşəli xəstəliklərdə antibiotiklər effektsizdir. Sadəcə virus yox, eləcə də bakteriya mənşəli xəstəliklərə baxsaq görərik ki, bir xəstəliyi bir yox bir neçə bakteriya törədə bilir və hərəsinə uyğun antibiotiklər fərqlidir. Belə hallarda antibiotik istifadəsi bakteriyalarda antibiotikə qarşı rezistentlik yaradır və gələcəkdə xəstənin müalicəsində böyük çətinliklərə gətirib çıxarır", - deyə o bildirib.

# Ürək xəstələrinə stend nə zaman qoyulur?

***Son illər Azərbaycanda ürək xəstəliyindən əziyyət çəkənlərin sayı getdikcə artmaqdadır. Bunun nəticəsində ürəyə stent qoyulması halları da çoxalıb. Cəmiyyətdə isə belə bir fikir formalaşıb ki, hazırda kardioloqların əksəriyyəti müayinə üçün gələn ürək xəstələrinə stend qoyulmasını tövsiyyə edirlər. Deməli olar ki, alternativ müalicə metodlarından istifadə olunmur. Maraqlıdır, görəsən, son illər ürəyə stent qoyulmasında müşahidə edilən artıma səbəb nədir? Ümumiyyətlə, hansı hallarda stent qoyulmasına göstəriş var? Stent qoyulduqdan sonra xəstələrin həyatında nələr dəyişir?***

## Səhiyyə





**Şəhla Baxşıyeva,**
həkim-kardioloq

**■ Mövzu ilə bağlı həkim-kardioloq Şəhla Baxşıyeva qəzetimizə açıqlamasında deyib ki, son illər stent qoyulmasında artım müşahidə olunmasına rast gəlinir. Amma bu məsələ heç də həkimlərin alternativ müalicə metodundan istifadə etməməsi ilə bağlı deyil:**

"Bunun əsas səbəbi diaqnostika sahəsində olan irəlləyişlə bağlıdır. Adətən pasiyentdə koronar arteriya xəstəliyi olduğu, tıxanmış və ya daralmış koronar arteriyalarla bağlı simptomlar yaşadığı hallarda ürəyinə stent qoyulur. Məsələn, stenokardiya ürək əzələsi kifayət qədər oksigenlə zəngin qan qəbul etmədikdə baş verən sinə ağrısı və ya narahatlıqdır. Stenokardiya koronar arteriyalarda əhəmiyyətli tıxanmalardan qaynaqlanırsa, simptomları aradan qaldıraraq zədələnmiş bölgəyə qan axını yaxşılaşdırmaq üçün stentdən istifadə edilə bilər. Bundan başqa, stabil koronar arteriya xəstəliyi zamanı, yəni bir və ya bir neçə koronar arteriyanın əhəmiyyətli dərəcədə daralması və ya tıxanması olduğu və xəstənin döş qəfəsində ağrı (stabil angina), nəfəs darlığı və ya yorğunluq kimi simptomlarla qarşılaşdığı hallarda, qan axını yaxşılaşdırmaq və simptomları aradan qaldırmaq üçün stent qoyula bilər. Qeyri-stabil stenokardiya zamanı da stentə göstəriş var. Bu, gözlənilmədən baş verən və yaxınlaşan infarktın əlaməti ola bilən anginanın daha ağır formasıdır. Stentlər qeyri-stabil stenokardiyaya səbəb olan əsas tıxanmaları müalicə etmək üçün istifadə edilə bilər. Ürək infarktı zamanı koronar arteriya adətən qan laxtası ilə tamamilə bloklanır. Bu fövqəladə vəziyyətdə stent daha çox bloklanmış arteriyanı tez bir zamanda açmaq, ürək əzələsinə qan axını bərpa etmək və zərərləri minimuma endirmək üçün istifadə olunur. Ümumilikdə isə bu proseslərin icra olunması qərarı xəstənin xüsusi tibbi vəziyyəti, tıxanmanın yeri, şiddəti və müxtəlif digər amillər əsasında qəbul edilir. Hər bir halda müalicə qərarları xəstə ilə həkim arasında müzakirə edilməlidir və müalicə seçimi insandan insana vəziyyətdən aslı olaraq dəyişir. Unutmaq olmaz ki, bütün ürək-damar xəstəlikləri, ani qəfləti ölüm, infarkt, stenokardiya, ürəyi qidalandıran damarın daralmasından ya da tutulmasından qaynaqlanır. Əgər ürəyi qidalandıran damar tutulubsa və ya kritik həddə daralıbsa, o xəstə daim özündə həyati təhlükə daşıyır. Bu vəziyyət xəstənin həyatına son qoya, ciddi ağrılara, infarkta və s. gətirib çıxara bilər. Ürək-damarında tutulma varsa və bu damar əhəmiyyətlidirsə, tutulma aradan qaldırılmalıdır, çünki ürəyi qidalandıran damarlarda tutulma olmamalıdır. Təbii ki, çox ciddi daralma olmadıqda həkim tərəfindən dərman müalicəsi təyin olunur. Əgər tac damarlarında daralma ciddidirsə, bu zamam müasir cərrahiyyə metodu olan stentləmə əməliyyatı qaçılmazdır".

Həkim kardioloq vurğulayıb ki, stent qoyulduqdan sonra xəstə yaşam tərzini mütləq dəyişdirməlidir: "Stent xəstəlik törədən fəsadı aradan qaldırır, xəstəlik yenə də insanda qalır, necə ki stent qoyulan damar tutulubsa, müəyyən müddətdən sonra digər damarlar da tutula bilər. Ona görə, xəstəyə stent qoyuldusa, artıq "tam sağlamam" deyə düşünməməlidir. Xəstələr ömrü boyu profilaktik, təkrar daralmanın qarşısını alacaq müalicə almalıdır.

Əfsuslar olsun ki, günümüzdə xəstələr bu qaydalara əməl etmir. Stent qoyulduqdan bir müddət sonra dərman qəbulunu da dayandırırlar. Bu da fəsadlara gətirib çıxara bilər. Stent günümüzdə dünyanın ən aparıcı ölkələrində, ən çox yayılmış müalicə metodudur. Azərbaycanda stent qoyma əməliyyatı dünya səviyyəsində həyata keçirilir. Stent insanın həyat keyfiyyətini yaxşılaşdırır, ömrünü uzadır. Ona görə də əməliyyat olunmuş xəstə dərman qəbuluna davam etməlidir. Əslində xəstənin həyatında edəcəyi dəyişikliklər stentlə yox, xəstəliklə əlaqədardır. Bir insanın qanda xolesterini yüksəkdirsə, əməliyyat olunsa da, olunmasa da, dərman içməli, pəhriz saxlamalı, siqaretdən uzaq olmalı, fiziki məşqlər etməlidir. Həmin xəstələr stent qoyulmasa belə bu şərtlərə əməl etməlidir, çünki onlarda artıq xəstəlik var. Stent isə xəstəliyin yaratdığı ürəyə olan fəsadın qarşısını alır".

> *"Xəstəyə stent qoyuldusa, artıq "tam sağlamam" deyə düşünməməlidir*

*✍ Sevinc*

# "Nar" Azərbaycanda uşaq hüquqlarının təşviqinə dəstək olur

®

**"Nar" 20 Noyabr - Ümumdünya Uşaq Hüquqları Günü ilə əlaqədar Bakı, Lənkəran və Şəkidə təşkil olunan maarifləndirmə kampaniyasına qoşulub. "Regional İnkişaf" İctimai Birliyi, Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "AzerGold" QSC və "Nar"ın təşkilatçılığı ilə keçirilən kampaniya 300 şagirdi və ümumi ictimaiyyəti əhatə edib.**




Əsas məqsəd həmin regionlarda təhsil mühiti vasitəsilə məktəblilərin hüquqları barədə məlumatlılığının artırılmasıdır. Təşəbbüs çərçivəsində Lənkəran və Şəkidə uşaqların problemlərinə dair sosial teatr tamaşaları nümayiş edilib və interaktiv müzakirələr keçirilib. Bakıda isə uşaqların da iştirakı ilə uşaq hüquqlarına dair Debat Forum təşkil edilib.

Qeyd edək ki, "Nar"-ın əsas Korporativ Sosial Məsuliyyət (KSM) istiqamətlərindən biri də elm və təhsilin inkişafına yönəlib. Mobil operatorun Ümumdünya Uşaq Hüquqları Gününün təşviqinə dəstəyi gənc nəslin sağlam inkişafı üçün sarsılmaz öhdəliyini vurğulayır. Bu çərçivədə "Nar"ın reallaşdırdığı KSM layihələri haqqında daha ətraflı: nar.az/projects Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## HƏFTƏ REYTİNQ

### Həftənin MƏĞLUBİYYƏTİ



Azərbaycan millisi AVRO-2024-ün seçmə mərhələsində son oyuna çıxıb. Canni De Byazinin komandası 10-cu turda səfərdə Belçika ilə qarşılaşıb.

Belçika hesabı 17-ci dəqiqədə açıb. Eddi İsrafilov 24-cü dəqiqədə qırmızı vərəqə alıb. Lukaku poker edib. O, 27, 30 və 37-ci dəqiqələrdə də fərlqənib. Torssard 90-cı dəqiqədə fərqi 5 topa çatdırıb. Oyun 0-5 rəqibin millimizi məğlub etməsi ilə yekunlaşıb.

### Həftənin İMTİNASI



"Dünyada baş verən bütün faciələrin, müharibələrin müəllifi, təşkilatçısı ABŞ-dir". Bu fikirləri deputat Fəzail Ağamalı parlamentin plenar iclasında bildirib. "90-cı illərdə bəzi deputatlarla bərabər ABŞ-də oldum. Bizə Nebraska ştatının və Linkoln şəhərinin fəxri vətəndaşlığını verdilər. Bu gün onların hər ikisindən imtina edirəm", - deyə millət vəkili vurğulayıb.

### Həftənin HƏDİYYƏSİ



Əməkdar artist Vəfa Zeynalova paylaşımı ilə diqqət çəkib. Aktrisa ona hədiyyə edilən çələngin fotosunu sosial media hesabında paylaşıb. Çələngin güldən deyil, dollar əsginaslarından ibarət olması müzakirələrə səbəb olub.

### Həftənin GƏLİRİ



Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün gəncliyindən bəhs edən "Atatürk" filmi barədə maraqlı faktlar məlum olub. Baş rolda Aras Bulut İynemlinin çəkildiyi film 14 günə 114 milyon lirə (təxminən 6,7 milyon manat) gəlir əldə edib. Filmi 2 həftədə 1 milyon 36 min insan izləyib. Bu, il ərzində baxış sayı milyonu keçən 7-ci film olub. Filmin rejissoru Mehmet Ada Öztekindir. Qeyd edək ki, ekran işi Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü çərçivəsində çəkilib.

### Həftənin GÖRÜŞÜ



Çin sədri Si Cinpin və ABŞ Prezidenti Co Bayden San-Fransisko yaxınlığında apardıqları danışıqlarda yeni şəxsi görüşün keçirilməsi barədə razılığa gəliblər. Bu barədə Ağ evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi növbəti brifinqdə bildirib. Kirbi əlavə edib ki, görüşlə bağlı hələ dəqiq tarix təyin olunmayıb.

### Həftənin PAPAĞI



Fransada 1804-1815-ci illər arasında imperator olan Napoleon Bonapartın taxdığı papaq paytaxt Parisdə hərraca çıxarılacaq. Napoleonun qiyməti 600 min avrodan (1 milyon 113 min AZN) 800 min avroya (1 milyon 484 min AZN) qədər olan məşhur papağı Parisdə yeni sahibini tapacaq. Həmçinin, hərraca papaqdan əlavə Napoleona məxsus digər şəxsi əşyalar da çıxarılacaq. Hərracı təşkil edən "Jean Pierre Osenat" şirkəti bildirib ki, insanlar bu papağı hər yerdə tanıyacaqlar.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU




**Bayden Şükranlıq Günü münasibətilə hind quşunu əfv etdi**

# Müharibə veteranlarına şad xəbər

**Ruslan Atakişiyev,**
iqtisadçı ekspert

Müharibə veteranları üçün nəzərdə tutulan təqaüdlərin artırılmasına ehtiyac var.

▸▸ Səh. 6

## STATİSTİKA



**■ Azərbaycanın strateji valyuta ehtiyatları beynəlxalq qəbul edilmiş kifayətlilik normalarını üstələyib.**

Belə ki, 2023-cü ilin sentyabr ayının 29-na ölkənin strateji valyuta ehtiyatları 34 aylıq mal və xidmət idxalına kifayət edib. (2023-cü ilin I yarısı üzrə mal və xidmət idxalı götürülməklə). Qeyd edək ki, strateji ehtiyatlar manatla pul kütləsini (M2) 3.4 dəfə üstələyib (2023-cü ilin 9 ayının yekunu üzrə olan M2 pul aqreqatı götürülməklə).



▸▸ Səh. 7

# Su təsərrüfatının idarəsində yenilik